RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 216 (9383) 5 OKTYABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ədalətin Zəfəri

## İLHAM ƏLİYEV separatçı rejimi məhv etdi, cinayətkar rəhbərləri isə Bakı həbsxanasına gətirtdi

İlham Əliyev müharibədən ötən 3 il ərzində dəfələrlə keçmiş hərbi xuntanın tör-töküntülərinə mesaj yollayaraq bəyan etdi ki, istənilən təxribata ağır cavab veriləcək və terrorçuların başı çox pis şəkildə əziləcək.

Çox keçmədi və Prezident hər zamankı kimi sözünün sahibi kimi nəinki separatizmin başını əzdi, həm də 200 illik erməni oyunbazlığını məhv etdi. Sentyabrın 19-da keçirilən 23 saatlıq antiterror tədbirləri ilə Azərbaycanın suverenliyi tam təmin olundu. Belə demək mümkünsə, İlham Əliyev Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun tam bərpasını 23 saat ərzində yekunlaşdırdı.

İlham Əliyevin digər bəyanatı isə o idi ki, əli Azərbaycan xalqının qanına batmış, xalqımıza qarşı terror aktları törətmiş hər bir separatçı cəzasını alacaq. Bu bəyanatın da reallaşması çox çəkmədi. Özünü buraxdığını elan edən qondarma qurumun "rəhbər"ləri indi bir-bir həbs edilərək Bakıya gətirilir.

→ 5

## Volodimir Zelenski İlham Əliyevə zəng edib

**Oktyabrın 4-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirib.

Telefon söhbəti əsnasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə bir daha dəstək ifadə olunub, regional təhlükəsizlik, mövcud təhdidlər və gələcək əməkdaşlıq formatlarına dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Maldiv Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Məhəmməd Muizzuya

Hörmətli cənab Muizzu!

Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan-Maldiv dostluq əlaqələri daha da inkişaf edəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınızın rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2023-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Qarabağda həyata keçirilən antiterror tədbirlərindən sonra təslim olmaq məcburiyyətində qalan qanunsuz separatçı rejim tarix səhnəsindən silindi. Başa çatmış Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində yaşanan ağrıacılar artıq tam sona yetir. Qarabağda qalmağa razı olan ermənilər rifah dövləti Azərbaycanın vətəndaşları olmağın bütün üstünlüklərindən faydalanacaqlar. Başda erməni diasporu olmaqla radikal ermənilər isə bundan sonra ancaq özlərinə ziyan vuracaqlar.

Cənab Prezident, Qarabağda uzun müddət davam etmiş problemin həlli münasibətilə başda Siz olmaqla bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Azərbaycanın bütün ərazilərində, o cümlədən Qarabağda sülhün və sabitliyin davamlı olmasını arzulayıram.

Sizə cansağlığı diləyir, səmimi ehtiramımı ifadə edirəm.

***Yaşar YAKIŞ ,***
***2002-2003-cü illərdə Türkiyənin xarici işlər naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

## Şərtləri İlham Əliyev diktə edir

### Heç bir qüvvə Azərbaycanın qərarına təsir edə bilməz

→ 6

## ASALA yəhudilərə qarşı terrora başladı

### Quldur təşkilatı İrəvanda sinaqoqa hücumun digər ölkələrdə də davam edəcəyini bildirdi

→ 7

## Rusiyanın Hayastandan qisası ağır olacaq

### Putinin həbsinə razılıq verdiyinə görə, Paşinyanı Moskva ciddi təhdid etdi

→ 7

## USAİD-in "qara oyunları"

### ABŞ bu təşkilat və digər qurumlar vasitəsilə yeni dövlət çevrilişlərinə cəhd göstərir?

→ 5

## Xocalı cəlladlarının qolları qandallandı

Cəzasızlıq Ermənistanın ərazilərimizdə işğalı əbədiləşdirmək həvəsini artırdı və yeni ərazilər uğrunda cəfəng ideyalar irəli sürməyə başladı. Ona görə də Ermənistan Qarabağda separatizm yuvasını gücləndirməyə  və Azərbaycanı yenidən hədələməyə davam edirdi. Lakin vədə yetişdi, Azərbaycan 44 günlük Vətən müharibəsində öz ərazilərini düşmən tapdağından azad etdi. Buna baxmayaraq, Qarabağda separatizm yuvası  qara yara kimi  qalmaqda davam edirdi. Dövlətimiz isə bu yaranı da kəsib atacağını və bütün cinayətkarların həbs ediləcəyini bildirmişdi

→ 5

## Fransa Ermənistanı məhvə sürükləyir

2020-ci ildə torpaqlarını işğaldan azad edən Azərbaycan 2023-cü ildə suverenliyini tam təmin edərək, Fransanın da xüsusi canfəşanlığı ilə 30 ildir ki, danışıqlar yolu ilə dalana dirənən Qarabağ məsələsini birdəfəlik yoluna qoydu.

Hazırda Azərbaycan mərkəzi hakimiyyəti illərdir boz zonaya çevrilən bu bölgədə dövlət idarəçiliyinə başlayıb, Xankəndidə yenidən normal həyat şərtlərinə qayıdılıb. Azərbaycan mərkəzi hakimiyyəti Qarabağın erməni sakinlərinin reinteqrasiyası ilə bağlı əməli addımlar atır.

→ 7

## Azərbaycan öz uğurları ilə USAİD-in planlarını alt-üst edir

Ümumiyyətlə isə adında inkişaf olsa da, USAİD-in fəaliyyət göstərdiyi bütün ölkələrdə pozuculuq fəaliyyəti ilə məşğul olduğu dəfələrlə öz təsdiqini tapmışdır. Keçmiş sovet ittifaqının bir çox ölkələrində bu təşkilatın adı hər zaman siyasi proseslərə açıq müdaxilədə, hakimiyyət çevrilişlərinə cəhdlərdə və bütün bunlar üçün gənclərin radikal şəkildə yönləndirilməsi və s. hallanıb.

→ 5

## O, müasir dünya siyasətini gözəl bilir

### Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dəfələrlə təsdiqini tapıb

Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil rəyi əsasında 2019-2022-ci illər üçün bu quruma sədr seçildi!

Azərbaycanın rəhbərliyi dövründə İlham Əliyevin gördüyü işləri bəyənərək yüksək qiymətləndirən təşkilat üzvləri onun fəaliyyət müddətini daha bir il uzatdılar.

Əslində, Azərbaycan quruma daha ilyarım başçılıq etməli oldu.

**Dünyada ikili standartların hökm sürdüyü, güclülərin öz iradələrini zəiflərə zorla qəbul etdirdiyi bir vaxtda cənab İlham Əliyev quruma rəhbərliyini ədalət və beynəlxalq hüququn prinsipləri əsasında həyata keçirərək bu sahədə də yeni nümunə yaratdı!**

*Belə ki, İlham Əliyev əvvəldən sonadək öz fəaliyyətini "Banduq prinsipləri" əsasında qurmaqla, ədaləti və beynəlxalq hüququ uca tutmaqla üzv ölkələrin qanuni maraqlarını inam və qətiyyətlə müdafiə etdi!*

Görünən bu idi ki, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə mübarizədə başını itirdiyi bir zamanda Qoşulmama Hərəkatı misli görünməmiş bir çağırışla bəlaya qarşı mübarizədə qlobal səyləri birləşdirməyə və daha effektli çalışmağa nail oldu.

**BMT-nin Qoşulmama Hərəkatından daha stajlı və təcrübəli olmasına baxmayaraq, bu mötəbər qurum da Azərbaycanın rəhbərliyi dövründə Qoşulmama Hərəkatından bəzi şeyləri əxz edə bildi.**

*Belə ki, 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının liderlər səviyyəsində ilk dəfə onlayn sammiti keçirildi.*

*Bundan bir neçə ay sonra - 2020-ci ilin dekabrında isə BMT Baş Assambleyasının onlayn qaydada xüsusi sessiyası baş tutdu.*

COVID-19 pandemiyası dövründə uzun axtarışlardan sonra xüsusi peyvənd tapılan zaman ondan dərhal tələbatı ödəyəcək qədər istehsal etmək və ehtiyacı olanların hamısına çatdırmaq mümkün olmadı.

Belə vəziyyətdən istifadə edən varlı və sözükeçən dövlətlər isə nəinki öz ehtiyaclarını ödəyəcək qədər, hətta ondan daha artıq vaksin alaraq ölkələrinə daşıdılar.

Əvəzində isə zəif və imkansız ölkələr peyvənd əldə edə bilmədiklərindən pandemiyada daha ağır itkilərə məruz qaldılar.

**Cənab İlham Əliyev bunu "peyvənd millətçiliyi" adlandıraraq hiddətlə qınadı, yolverilməz olduğunu açıq şəkildə bəyan etdi.**

*Üstəlik, belə ədalətsizlikdən əziyyət çəkən dövlətlərə peyvəndlə, habelə vəsaitlə yardım göstərilməsini təmin və təşkil etdi.*

*Azərbaycan özü də ÜST-yə 10 milyon ABŞ dolları ayırmaqla həmin ölkələrə dost əlini uzatdı.*

Qoşulmama Hərəkatının gücünün və imkanlarının artırılması üçün onun institusional inkişafı da zəruri idi.

Cənab İlham Əliyev bu sahədə də islahat və yeniliklərə nail oldu.

→ 4

## "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2086 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 637; 2011, № 12, maddə 1161; 2013, № 6, maddə 703, № 9, maddə 1088; 2014, № 4, maddə 404, № 7, maddə 864; 2016, № 4, maddələr 738, 750; 2018, № 1, maddə 99; 2019, № 9, maddə 1487; 2020, № 3, maddə 304; 2023, № 4, maddə 535; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 3973 nömrəli Sərəncamı) 1-ci hissəsində "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini" sözləri "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2023-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 354** **QƏRAR** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

### "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084, № 12, maddə 1566; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 275 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ", dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı" üzrə:

2.1. adında "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ", dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar" sözləri ilə əvəz edilsin;

2.2. 3-cü hissəyə aşağıdakı məzmunda əlli dördüncü abzas əlavə edilsin:

"3-53/ Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi";

2.3. aşağıdakı məzmunda 19-cu hissə əlavə edilsin:

**"19. Komissiyalar**

19-1/ Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası

19-2/ Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası

19-3/ Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası

19-4/ İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası".

2.4. "Qeydlər"in 1-ci abzasında "dövlət orqanına (qurumuna)" sözləri "Azərbaycan Respublikasının dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə və dövlət adından yaradılan publik hüquqi şəxslərə və komissiyalara (bundan sonra- dövlət orqanı (qurumu)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 356** **QƏRAR** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 aprel tarixli 129 nömrəli, 21 iyul tarixli 236 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 21-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 21.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"21.1.1. ərazi gömrük idarələri:

21.1.1.1. Bakı Baş Gömrük İdarəsi

21.1.1.2. Naxçıvan Baş Gömrük İdarəsi

21.1.1.3. Astara Gömrük İdarəsi

21.1.1.4. Balakən Gömrük İdarəsi

21.1.1.5. Biləsuvar Gömrük İdarəsi

21.1.1.6. Gəncə Gömrük İdarəsi

21.1.1.7. Xaçmaz Gömrük İdarəsi

21.1.1.8. Sumqayıt Gömrük İdarəsi

21.1.1.9. Şərqi Zəngəzur Gömrük İdarəsi

21.1.1.10. Tovuz Gömrük İdarəsi".

2. 21.1.2.2-ci yarımbənddə "Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi" sözləri "Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsi" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 21.1.2.4-cü yarımbənd əlavə edilsin:

"21.1.2.4. Azad və Xüsusi İqtisadi Zonalar üzrə Gömrük İdarəsi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 353** **QƏRAR** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 976; 2014, № 4, maddə 446; 2015, № 3, maddə 325; 2017, № 4, maddə 620, № 7, maddə 1500; 2018, № 11, maddə 2452; 2019, № 2, maddə 343, № 7, maddə 1355; 2020, № 1, maddə 81; 2022, № 6, maddə 690; 2023, № 4, maddə 596) ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "Magistratura səviyyəsi üzrə" bölməsində "XTM060010 Sərhəd təhlükəsizliyi və idarəetmə - Sərhəd təhlükəsizliyi və idarəetmə (sahələr üzrə)" sətri aşağıdakı redaksiyada verilsin:

"XTM060010*** Sərhəd təhlükəsizliyi və idarəetmə - Sərhəd təhlükəsizliyi və idarəetmə (sahələr üzrə)".

2. Təsnifatın sonunda göstərilmiş qeyd hissəsinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"*** Bu ixtisasa aldıqları ixtisasdan asılı olmayaraq, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində xidmət edən ali təhsilli zabitlər Dövlət Sərhəd Xidmətinin Akademiyasının qəbul şərtlərinə uyğun olaraq magistraturaya qəbul oluna bilərlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycanla Türkmənistan arasında iqtisadi sahədə tərəfdaşlıq regionun inkişafına töhfə verir

Azərbaycan-Türkmənistan iqtisadi əməkdaşlığının perspektivləri və birgə layihələr üzrə tərəfdaşlığın səmərəli nəticələri müzakirə edilib.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov bu ölkədə səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib. Qəbulda dövlət başçılarının dostluğa və həmrəyliyə əsaslanan Azərbaycan-Türkmənistan münasibətlərinə verdiyi önəm sayəsində çoxtərəfli əlaqələrin inkişaf etdiyi vurğulanıb.

Nazir Mikayıl Cabbarov Türkmənistana səfəri çərçivəsində bu ölkənin Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovla görüşüb, iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Görüşdə vurğulanıb ki, Türkmənistanla qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində hər iki ölkənin rəhbərlərinin siyasi iradəsinin, yüksəksəviyyəli səfərlərin, keçirilən görüş və tədbirlərin önəmli rolu var. Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında əməkdaşlığın güclənməsi fonunda iqtisadi-ticarət əlaqələri də genişlənir. Bildirilib ki, ölkələrimizin ortaq fəaliyyəti və iqtisadi sahədə tərəfdaşlığı regionun inkişafına töhfə verir.

Görüşdə iki ölkə arasında energetika, nəqliyyat, investisiya, ticarət, kənd təsərrüfatı, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı imkanları diqqətə çatdırılıb.

Türkmənistana səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov "Türkmənqaz" Dövlət Konserninin rəhbəri Maksat Babayevlə görüşüb. SOCAR-ın nümayəndələrinin də iştirak etdiyi görüşdə energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, karbohidrogen resurslarının birgə kəşfiyyatı və işlənməsi, potensial layihələrin reallaşdırılması barədə fikir mübadiləsi aparılıb.

Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyasının həmsədri Batır Atdayev arasında keçirilən görüşdə ikitərəfli ticarət dövriyyəsinin artırılması, komissiyanın növbəti iclasının keçirilməsi, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafı imkanları müzakirə olunub.

Türkmənistana səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov və bu ölkənin Nazirlər Kabineti sədrinin müavini Batır Amanov iki ölkə arasında enerji sahəsində əlaqələrin inkişaf perspektivləri, birgə layihələrin reallaşdırılması potensialını nəzərdən keçiriblər. SOCAR-ın nümayəndələrinin iştirak etdiyi görüşdə Azərbaycan və Türkmənistan arasında energetika sahəsində imzalanan sənədlərin əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə olduğu vurğulanıb.

## Reinteqrasiya prosesinə qoşulmaq məqsədilə bu günədək portal vasitəsilə 98 müraciət qeydə alınıb







Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağdakı ermənilərin reinteqrasiyası prosesi ilə bağlı birgə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bölgədə müvafiq işlərin davam etdirildiyi vurğulanıb.

Bildirilib ki, reinteqrasiya prosesinə qoşulmaq məqsədilə ilkin qeydiyyata alınmaq üçün fiziki olaraq yerində 13 nəfər, bu məqsədlə yaradılmış xüsusi portal reintegration.gov.az vasitəsilə elektron qaydada 2 nəfər olmaqla, ümumilikdə 15 nəfər sakin könüllü şəkildə zəruri olan bütün məlumatları təqdim edərək Dövlət Miqrasiya Xidmətinə müraciət edib. Sakinlərin hər birinin ilkin qeydiyyata dair müraciətləri qəbul edilib və onlara müraciətlərinin icrası barədə əlavə məlumat veriləcəyi bildirilib. Müraciət edənlər Qarabağ iqtisadi rayonunda yaşamaq və Ermənistan vətəndaşlığından çıxaraq Azərbaycan Respublikası vətəndaşlığını əldə etməklə Azərbaycan dövlətinin himayəsindən istifadə etmək istədiklərini çatdırıblar. Bundan başqa, Dövlət Miqrasiya Xidməti tərəfindən bölgədə səyyar qəbul zamanı sakinlərlə hüquqi maarifləndirmə işləri aparılıb, onlara reinteqrasiya prosesi barədə məlumat verilib.

Həmçinin reinteqrasiya ilə bağlı müraciətlərin qəbulu, icrası və maarifləndirmə işinin aparılması reintegration.gov.az (Çağrı Mərkəzi, WhatsApp, Çat və elektron poçt da daxil olmaqla) portalı vasitəsilə həyata keçirilir. Bu günədək portal vasitəsilə Dövlət Miqrasiya Xidmətinə ümumilikdə 98 müraciət daxil olub. Müraciətlərin əksəriyyəti reinteqrasiya prosesinə marağını ifadə edən şəxslər tərəfindən sorğu, həmçinin ilkin qeydiyyatdan keçmək üçün məlumat və dəstək xarakterli olub və hər biri müvafiq qaydada cavablandırılıb.

Həmçinin bölgəyə ezam olunan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əməkdaşları humanitar vəziyyətlə əlaqədar cari ehtiyacların müəyyən edilməsi üçün sakinlərlə ilkin sosial-psixoloji, sosial xidmətlərə, reabilitasiya xidmətlərinə dair qiymətləndirmə və maarifləndirmə işi aparıb, ehtiyacları müəyyənləşdirib, həmçinin əlillik və reabilitasiya xidmətlərinə dair məsləhətlər veriblər.

## ŞƏT-ə üzv ölkələr Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox investisiya qoyublar

Energetika naziri Pərviz Şahbazov "Qazaxıstan Enerji Həftəsi-2023/XV Avrasiya Forumu KAZENERGY" tədbiri çərçivəsində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 1-ci Enerji Forumunda onlayn formatda iştirak edib.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən nazir Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çətiri altında qlobal enerji istehsalı və istehlakı strukturunda təsirli mövqeyi olan ölkələrin, zəngin neft-qaz yataqları, "yaşıl enerji" potensialı, mühüm qlobal enerji-nəqliyyat dəhlizləri, ixrac infrastrukturlarının mövcudluğunu enerji sektorunda çoxtərəfli formatda əməkdaşlıq üçün böyük imkanlar kimi dəyərləndirib. Bu potensialın reallaşdırılması baxımından ŞƏT-in enerji strategiyasının hazırlanması ilə bağlı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin təşəbbüsünün strateji əhəmiyyətindən bəhs edib.

Energetika naziri təşkilatın dialoq tərəfdaşı olan ölkəmizin qurumla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edib.

Bildirilib ki, Azərbaycanın hazırkı geosiyasi mövqeyi və regionda daimi təhlükəsizlik, sabitlik və inkişaf mühitinin təmin olunması ilə bağlı uğurlu siyasəti təşkilatla yeni statusda əməkdaşlığa imkan yaradır: "Bu günlərdə dünya bir daha Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ŞƏT-in də əsas prioritetlərindən olan terrorizm, ekstremizm və separatizmə qarşı mübarizədə qətiyyətliyinə və prinsipiallığına şahidlik etdi. Azərbaycanın suverenliyinin bərpa edilməsilə regionda böyük inkişaf prosesinin qarşısını alan maneələri aradan qaldıran və sülhü təmin edən yeni bir dövrə qədəm qoyuldu. Regionun enerji, nəqliyyat və logistika potensialından istifadə üzrə geniş əməkdaşlıq imkanları yarandı".

Təşkilata üzv ölkələrlə Azərbaycanın ticarət dövriyyəsinin ötən il 45.8 faiz artaraq 9 milyard dollardan çox olduğu diqqətə çatdırılıb. Bildirilib ki, bu ölkələrin Azərbaycanın xarici ticarətindəki payı ötən il 17 faiz təşkil edib. ŞƏT üzvləri Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox investisiya qoyub. Azərbaycan isə üzv ölkələrin iqtisadiyyatına 3.2 milyard dollar sərmayə yatırıb.

Çıxışda ŞƏT ölkələri ilə ənənəvi və bərpaolunan enerji sahəsində yeni əməkdaşlıq əlaqələrindən bəhs edilib. Çinlə 2 QVt gücündə "yaşıl enerji" layihələrinin həyata keçirilməsi, Pakistana "SOCAR Trading" vasitəsilə LNG tədarükü, Azərbaycanla Özbəkistanın energetika sahəsində əməkdaşlığının dərinləşdirilməsi, həmçinin SOCAR-la "Uzbekneftqaz"ın hər iki ölkədə neft-qaz layihələrində iştirakı ilə bağlı müvafiq sənədlərin, eləcə də Energetika nazirlikləri arasında 2023-2025-ci illər üzrə Yol Xəritəsinin imzalanması, Qazaxıstan neftinin BTC ilə nəql olunması nümunələr kimi qeyd olunub. "BTC sisteminə bu ilin aprel-sentyabr aylarında təxminən 609 min ton Qazaxıstan nefti nəql olunub. Bunun 493 min tonu Ceyhan limanından dünya bazarına göndərilib. İlin sonunadək bu həcm 1.1 milyon tona çatdırılacaq", - deyə nazir əlavə edib.

Qeyd edək ki, ŞƏT-in 1-ci Enerji Forumu qlobal çağırışlar nəzərə alınmaqla təşkilata üzv dövlətlər arasında enerji əməkdaşlığının inkişafı üzrə strateji yanaşmalara həsr olunub.





# Neft sənayemizin Xoşbəxt dövrü

**"Adınız Xoşbəxtdir, özünüz də xoşbəxtsinizmi?" - deyə həmkarlarımızdan biri 80 illik yubileyi qeyd edilən vaxtlarda ondan xəbər almışdı.**

"Xoşbəxt olmasam, 80 il yaşamazdım ki!" - cavabını vermişdi.

Bundan sonra Xoşbəxt müəllimin ömür payına daha 13 il yaşamaq düşdü. Yaşadığı illərin insanın sərvəti olduğu barədə məşhur bir mahnı var. O, həmin mahnını çox sevərdi. Bəlkə o səbəbdən ki, yaşadığı illəri həyatın xoşbəxtliyi sanırdı. Lakin söhbət təkcə taleyin ona bəxş etdiyi ömür uzunluğundan deyil, bu ömrün illərinin dəyərindən, məna yükündən gedir. Bu illər ərzində Xoşbəxt Yusifzadənin vətəni Azərbaycanın iqtisadi qüdrətinin artması üçün gördüyü misilsiz işlərdən, neft-qaz sənayemizin yaxşı mənada dünyaya səs salmasında özünəməxsus dəst-xəttinin olmasından gedir.

Xoşbəxt Yusifzadə akademik, geologiya-minerologiya elmləri doktoru kimi elmi rütbələrə çatmış, neft sektorunda bir çox rəhbər vəzifələrdə çalışmış, ömrünün son illərində SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) birinci vitse-prezidenti olmuşdu. Aldığı mükafatların, layiq görüldüyü orden və medalların, qazandığı titulların isə sayı-hesabı yox.

Xoşbəxtliyi heç bu şan-şöhrətdə də deyildi. Bu ad və titulların arxasında dayanan, zəhmətlə, zəka ilə, bir çox hallarda hətta mübarizə ilə nail olduğu nəticələrin gətirdiyi bəhrədə idi. Neft sənayemiz, Azərbaycanımız, xalqımız üçün...

Ümummilli Lider Heydər Əliyev görkəmli neftçi-geoloqun xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Xoşbəxt Yusifzadə xoşbəxt taleli insandır. Xoşbəxtlik banklara, xəzinələrə yerləşmir. Xoşbəxtlik - insanlığın təsdiqidir. Xoşbəxtlik həyatda mövqeyi olmaq, pozulmaz iz salmaqdır, xoşbəxtlik - səhər işə, axşam isə ailəyə tələsmək deməkdir. Nəhayət, xoşbəxtlik həm evdə, həm də bayırda sayılmaq, sevilməkdir. Xoşbəxt Yusifzadə belə xoşbəxt insanlardandır. Xoşbəxt Yusifzadə adı neftçiliyin bir növ sinoniminə çevrilmişdir. İstər dəniz olsun, istərsə quru, Xoşbəxt Yusifzadə zirvəsi hər yerdən görünməkdədir".

Maraqlı, mənalı, zəngin bir ömür yaşadı neftimizin canlı əfsanəsi olan Xoşbəxt Yusifzadə.

...Atası Stalinin repressiyalarının günahsız qurbanı olan, zəhmətkeş bir ananın qazandığı halal çörəklə böyüyən Xoşbəxt uşaqlıqdan həyatın çətinliklərinə sinə gərə-gərə irəliləmişdi. Pirşağıdan Kürdəxanıya piyada məktəbə getmişdi. Sənət seçəndə də asanından yapışmamış - neft cəbhəsinə üz tutmuşdu. Əmək fəaliyyətinə isə açıq dənizin qoynunda, gecə-gündüz dəli-dolu Xəzərin sərt dalğalarının döyəclədiyi polad estakadalar üstündə - Neft Daşlarında başlamışdı.

Quruda və dənizdə onlarla neft və qaz yatağı kəşf edib Xoşbəxt Yusifzadə. Azərbaycanın ilk qaz yataqlarından birinin sorağını 1968-ci ilin yazının birinci günündə verib. İstəyib ki, bu şərəfə yatağın adını Novruz qoysun. Lakin dostları onu ehtiyatlı olmağa çağırıb. Axı o zaman "Novruz" sözü yasaq edilirdi. Birlikdə məsləhətləşib yatağın adını "Bahar" qoyublar.

Prezident İlham Əliyev məşhur neftçi-geoloqun haqqında belə deyib: "Siz həm sovet dövründə, həm də müstəqillik dövründə Azərbaycan xalqı naminə, Azərbaycanın inkişafı yolunda böyük işlər görmüsünüz, böyük töhfələr vermisiniz. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın neft-qaz sənayesinin inkişafında sizin böyük rolunuz var. Siz 20-dən çox neft-qaz yatağının kəşf edilməsində bilavasitə iştirak etmisiniz, bir çox hallarda kəşfiyyat işlərinə rəhbərlik etmisiniz. O yataqlar arasında "Azəri", "Çıraq" və "Günəşli" xüsusi yer tutur. Bu yatağın sovet dövründə aşkarlanması böyük hadisə idi. Çünki Xəzərdə ən böyük neft yatağıdır. Ancaq "Azəri-Çıraq-Günəşli"nin müstəqillik dövründə işlənilməsi tarixi hadisədir. Çünki bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil. Bu yatağın işlənilməsi və yataqdan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir. Beləliklə, "Azəri-Çıraq-Günəşli" yatağının kəşf edilməsi və işlənilməsi doğrudan da tarixi hadisədir. Bu yaxınlarda bu yatağın işlənilməsi müddətinin uzadılmasını da biz təmin etdik və bu yataq ən azı 2050-ci ilə qədər istismarda olacaqdır".

"Azəri-Çıraq-Günəşli" üzrə kontrakt imzalananda təxmini ehtiyatlar xarici tərəfdaşlar tərəfindən 511 milyon ton səviyyəsində müəyyən edilmişdi. Xoşbəxt Yusifzadə isə əminliklə deyirdi ki, burada daha çox neft resursları var. İndi mütəxəssislər təsdiq edirlər ki, "Azəri-Çıraq-Günəşli"nin ehtiyatları ən azı 1 milyard tondur. Bəlkə hətta gələcək illərdə yeni texnologiyalar tətbiq olunduqca bu yataqlar daha çox məhsul verəcək.

Başqa sözlə, əgər Xoşbəxt Yusifzadə təkcə "Azəri-Çıraq-Günəşli"nin kəşfinə, eləcə də işlənməsinə sərf etdiyi səylərdən, zəhmətdən qeyri bir iş görməsəydi belə, adını Azərbaycanın neft-qaz sənayesi tarixinə, xalqımızın tarixinə həkk etmiş olardı...

Xoşbəxt Yusifzadə kəşflərini, tapıntılarını isbat etmək üçün bəzən mübahisələrdən, mübarizələrdən də keçməli olub. Xəzərin hüquqi statusu müəyyən ediləndə öz qəti sözünü deyib. "Şahdəniz"in perspektivləri barədə israrlı olub. O "Şahdəniz"in ki az sonra Azərbaycanı dünyada həm də qaz ixrac edən ölkə kimi tanıdıb.



"Ömrümün illəri və izləri" kitabında Xoşbəxt müəllim "Şahdəniz"lə bağlı geoloji kəşfiyyat işləri gedən günləri belə xatırlayır: "İllər ötüb keçdikcə neft və qaz sənayesinin inkişafında İlham Əliyevin xidmətləri barədə düşünəndə Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlara dair müqavilələrə onun hamilik fəaliyyətinin ayrı-ayrı məqamlarını da yada salır və İlham müəllimlə söhbətlərimi xatırlayıram. Yadımdadır, "Şahdəniz" strukturunda 1998-ci ildən qazılan 1 nömrəli axtarış quyusunda işlər bir sıra texniki və texnoloji səbəblərdən uzanırdı. Bundan əvvəl Xəzərin Azərbaycan sektorunda kəşf olunmuş "Əşrəfi" və "Qarabağ" yataqlarından gözlənilən nəticə alınmamış və bu yataqlarda nisbətən az miqdarda karbohidrogen ehtiyatları aşkar edilmişdi ki, bu da respublikada bəzi mütəxəssislər arasında müəyyən söz-söhbətə, müxtəlif şayiələrin yayılmasına səbəb olmuşdu. Belə bir vaxtda cənab İlham Əliyev məni açıq söhbətə dəvət etdi. Mən ona "Şahdəniz" barəsində geniş məlumat verdim. Məlumatı diqqətlə dinlədikdən, müəyyən məsələləri özü üçün dəqiqləşdirdikdən sonra və təqdim etdiyim geoloji məlumatlarla tanış olduqdan sonra o, tam inandı ki, yatağın böyük perspektivləri vardır. Həqiqətən də, "Şahdəniz"dən alınan son məlumatlar həmin söhbət zamanı söylənilən fikirlərin düzgünlüyünü təsdiq etdi".

Yenə də dövlətimizin başçısının bu məşhur neftçi-geoloq haqqında dediklərini xatırladaq: "Mən bir çox şeyləri Xoşbəxt müəllimdən öyrəndim. Hələ o vaxt Neft Şirkətində işlədiyim dövrdə və ondan sonra bir çox hallarda görürdüm ki, Xoşbəxt müəllim nə qədər bilikli adamdır. Onu da bilirdim ki, Ulu Öndər Heydər Əliyev Xoşbəxt müəllimə, onun sözünə çox inanırdı. Yəni onun sözü mütləq həqiqət hesab olunurdu və bir çox hallarda bu, təsdiq edilmişdir. Xatırlayıram ki, 1997-ci ildə "Abşeron" yatağı üzrə kontrakt imzalanandan sonra seysmik işləri aparılmışdı və kəşfiyyat quyusunun yeri müəyyən edilmişdi. Xoşbəxt müəllim də o vaxt xarici tərəfdaşlara demişdi ki, onlar quyunun yerini səhv seçiblər, orada heç bir ehtiyat olmayacaq. Onlar da dedilər ki, yaşlı kişidir, bizim seysmik qurğularımız, mütəxəssislərimiz, minlərlə işçimiz, milyardlarla dollar ticarət dövriyyəmiz var, kapitallaşdırmamız 10 milyardlarla ölçülür. İndi bir geoloq burada nə isə deyir. Əhəmiyyət vermədilər və peşman oldular. Çünki onlar Xoşbəxt müəllimə qulaq asmadılar, quyunu qazdılar və o da boşa çıxdı. Beləliklə, müqaviləyə xitam verildi və onlar da məcbur olub Azərbaycandan, o yataqdan çıxdılar. Amma ondan bir neçə il sonra başqa bir şirkət "Abşeron" yatağına maraq göstərdi. Yenidən kontrakt imzalandı, kəşfiyyat quyusunun yeri düzgün seçildi və böyük ehtiyatlar aşkarlandı".

Hələ o vaxt - 1990-cı illərdə Xoşbəxt müəllim deyirdi ki, "Abşeron" yatağının böyük qaz ehtiyatları var. Budur, artıq bir neçə aydır biz "Abşeron"dan mavi yanacaq alırıq. Odur ki, "Xoşbəxt dənizi ovcunun içi kimi aydın görür", - deyənlərin sözünün arxasında necə böyük həqiqətin dayandığının bir daha şahidi olduq.

Üç il əvvəl akademikin 90 illik yubileyinin necə təntənə ilə qeyd olunduğunu, Prezident İlham Əliyevin, Birinci xanım Mehriban Əliyevanın həmin tədbirdə iştirakını, dövlətimizin başçısının yubilyar haqqında dediyi gözəl sözləri, ona "Heydər Əliyev" ordenini təqdim etdiyini yaxşı xatırlayırıq. Elə həmin tədbirdə də dövlət başçısı bildirmişdi ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə göstəriş verib. Yeni bir gəmi Xoşbəxt Yusifzadənin adını daşıyacaq.

Prezidentimiz bu dəfə də öz sözünü tutdu, vədinə sadiq qaldı. 2022-ci il dekabrın 7-də "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istifadəyə verilməsi mərasimində iştirak etdi. Belə bir tədbirdə qocaman neftçi-geoloqun diqqət və qayğıdan məmnun qalması, hətta kövrəlməsi də təbii idi. Odur ki, o da ötən günlərin xatirələrini vərəqlədi: "Cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də maraqlandı. O vaxt dənizin dərinliyi 40 metr olan bütün sahələrində yataqlar kəşf olunmuşdu. Amma gəmiçilikdə gəmilər yox idi, az bir müddətdə 400-dən artıq gəmi aldı, kran gəmiləri, yükdaşıyan gəmilər. Bunların hamısı indi adları dünyada məşhur olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının kəşf olunmasına imkan verdi. Doğrudan da cənab Heydər Əliyev sanki, neçə il öncə gələcəyi görürdü. Doğrudan da böyük işlər gördü... Mən demək olar bütün gəmilərdə, tankerdə də olmuşam. Çünki hava bərk külək olanda başqa gəmi ilə qırağa çıxmaq mümkün deyildi. Biz tankerlərlə qırağa çıxırdıq. Hörmətli Prezident, əgər insanın bədənini neft sənayesinə bənzətsək, gəmiçilik onun ayaqlarıdır. Gəmiçilik olmadan biz dənizdə heç bir iş görə bilməzdik. Dənizdə nə yataqlar açmışıq, nə işlər görmüşük, nə edirik, bunlar hamısı gəmiçiliklə əlaqədardır. Çünki biz suda bunsuz heç bir iş görə bilməzdik. Özü də bu gəmiçiliyin o biri gəmiçilikdən - dəniz gəmiçiliyindən fərqi ondadır ki, o birilər birbaşa bir limandan başqa limana gedir, amma bu, açıq dənizə çıxır, platformalara yaxınlaşır. Odur ki, sizin hamınıza, bütün bu kollektivə öz təşəkkürümü bildirirəm. Bu, böyük vəzifədir. Daha nə deyim?! Bir daha təkrar edirəm ki, bu, mənim ən xoşbəxt günlərimdən biridir".

Lakin Xoşbəxtin bu uzun ömrünün xoşbəxtliklə yanaşı, ağrılı-acılı günləri, "sürpriz"ləri də az olmamışdı. Atasız böyümüş, qarda-yağışda bir kənddən digərinə pay-piyada məktəbə getmiş, həyatda "dalğaları yara-yara" özünə yol tapmışdı axı. Sonra da tale sinəsinə bir cüt oğul dağı çəkmişdi... Bununla belə, nikbin, səmimi, zarafatı sevən idi Xoşbəxt müəllim. Maraqlıdır ki, bu zarafatcıl insan haqqında həmkarları da belə ovqatla danışırdılar. Neftçi dostlarının zarafatyana dediyi bu sözlər isə əsl həqiqət idi: "Xoşbəxt müəllim qədəm basdığı hər qarış torpağın ətrindən bilir ki, onun təkində neft var, ya yoxdur və əgər varsa, nə qədərdir..."

Beləcə, quruda və dənizdə kəşf etdiyi yataqlarla, neft sənayemizə və elmimizə gətirdiyi yeniliklərlə, çalışdığı sahədə gördüyü digər misilsiz işlərlə, duzlu-məzəli söhbətləri ilə yaddaşlarda qalacaq bir insan əbədiyyətə, tarixə qovuşdu. Bu, hələ sağlığında ikən əfsanələşən Xoşbəxt Yusifzadədir!

*Flora SADIQLI,*
*"Azərbaycan"*




# Xoşbəxt Bağı oğlu YUSİFZADƏ



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli neftçi-alim və geoloq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, respublika dövlət mükafatları və Heydər Əliyev Mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Xoşbəxt Bağı oğlu Yusifzadə 2023-cü il oktyabrın 3-də ömrünün 94-cü ilində vəfat etmişdir.

Xoşbəxt Yusifzadə 1930-cu il yanvarın 14-də Bakı şəhərinin Pirşağı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1947-1952-ci illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı fakültəsində dağ mühəndisi-geoloq ixtisası üzrə ali təhsil almışdır.

Xoşbəxt Yusifzadə 1960-cı ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 2005-ci ildə professor elmi adını almış, 2007-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1952-ci ildə SSRİ Neft Sənayesi Nazirliyinin Layihə İnstitutunun Bakı filialında mühəndis-geoloq kimi başlayan Xoşbəxt Yusifzadə 1954-cü ilədək "Dənizneft" Birliyində geoloji şöbə rəisinin müavini və "Azneft" İstehsalat Birliyində böyük geoloq, 1954-1963-cü illərdə indiki "Neft Daşları" Neft və Qazçıxarma İdarəsində böyük geoloq, baş geoloq və rəis vəzifələrində işləmiş, 1963-1970-ci illərdə "Başdənizneft" İdarəsində şöbə rəisi, 1970-1992-ci illərdə isə "Xəzərdənizneft" Birliyində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.

Xoşbəxt Yusifzadə 1992-ci ilin may ayından "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti olmuş, həmin ilin noyabrından ömrünün sonunadək Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində prezidentin müşaviri, vitse-prezident və birinci vitse-prezident vəzifələrini tutmuşdur.

Akademik Xoşbəxt Yusifzadə Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmış şəxsiyyətlərdəndir. Xəzərdə genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və dənizin zəngin potensialının üzə çıxarılmasında onun müstəsna xidmətləri vardır. Alimin bilavasitə rəhbərliyi və iştirakı ilə 20-dən artıq neft və qaz yatağı, o cümlədən "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilərək istismara verilmişdir. Həmin yataqların kəşfi ölkəmizin neft strategiyasının milli mənafelərə uyğun gerçəkləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Neft-qaz geologiyası üzrə səriştəli mütəxəssis olan Xoşbəxt Yusifzadə uzun illər ərzində topladığı zəngin təcrübəsini neft sənayesi strukturlarında məsul vəzifələrdə çalışarkən öz təşkilatçılıq bacarığı ilə ahəngdar şəkildə birləşdirirdi.

Xoşbəxt Yusifzadə eyni zamanda neft və qaz sənayesinin aktual problemlərinin həlli, neft-qaz hasilatının inkişafı və geofiziki axtarış üsullarının təkmilləşdirilməsi sahəsində fundamental araşdırmaların müəllifi kimi tanınmışdır. Onun elmlə istehsalatın sıx bağlılığını əyani təcəssüm etdirən tədqiqatları Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənməsi zamanı elmi metodların tətbiqində xüsusi rol oynamışdır. Xoşbəxt Yusifzadənin apardığı tədqiqatların nəticələri onun 200-ə yaxın elmi əsərində öz əksini tapmışdır. Alimin neft emalı sənayesində ixtiraları respublika iqtisadiyyatına böyük səmərə gətirmiş, karbohidrogen ehtiyatlarının həcmi ilə bağlı hesablamaları həmişə özünü doğruldaraq, ona həmkarları arasında nüfuz qazandırmışdır.

Xoşbəxt Yusifzadənin Azərbaycanın neft-qaz sənayesinin inkişafında əvəzsiz xidmətləri və çoxillik səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycanın ali mükafatları - "Heydər Əliyev", "İstiqlal", "Şöhrət", "Şərəf", 1-ci dərəcəli "Əmək" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmiş, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Görkəmli neftçi-alim və geoloq, səmimi və təvazökar insan Xoşbəxt Bağı oğlu Yusifzadənin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Şahmar MÖVSÜMOV, Fərəh ƏLİYEVA, Mikayıl CABBAROV, Pərviz ŞAHBAZOV, Emin ƏMRULLAYEV, Rövşən NƏCƏF, İsa HƏBİBBƏYLİ, Akif ƏLİZADƏ, İbrahim QULİYEV**

# SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə Fəxri xiyabanda dəfn olunub



**SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə Fəxri xiyabanda dəfn olunub.**

AZƏRTAC xəbər verir ki, dəfn mərasimindən əvvəl Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında mərhumla vida mərasimi keçirilib.

Qeyd edək ki, SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə ötən gün 93 yaşında dünyasını dəyişib.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

- Bilik əməli fəaliyyətdə təsdiqini taparaq həqiqiliyini və dərinliyini sübut edir!
- Bilik praktikada yoxlanılaraq yüksək nəticəyə nail olmaqla təcrübəyə də çevrilir!
- Bilikli və təcrübəli insanların gördükləri iş dəyərli və gərəkli olur!

*Belə insanlar həm dünya siyasətçiləri və liderləri, həm də geniş xalq kütlələri tərəfindən məhəbbətlə qəbul edilərək inam və etibar qazanırlar.*

*Onlar həm də yeni dövrün yeni lideri statusuna da yiyələnirlər.*

**Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi bütün bu deyilənlərin məcmusuna və təsdiqinə çevrildi!**

Halbuki bu qurum İlham Əliyevədək:

- Qoşulmama Hərəkatı üzv dövlətlərin sayına görə BMT-dən sonra ikinci təşkilat hesab olunsa da, real nüfuzu və təsir gücü baxımından axırıncı yerlərdən birini tuturdu;
- Qoşulmama Hərəkatı digər güclü təşkilatlara üzv ola bilməyənlərin yeri sayılırdı;
- Qoşulmama Hərəkatı böyük iqtisadi və hərbi gücə malik olmadığından onu dinləmək və eşitmək istəyənlərin sayı da çox az idi;
- Qoşulmama Hərəkatı hətta öz gücünü və imkanlarını da lazımınca qiymətləndirməkdə çətinlik çəkirdi!

*İlham Əliyev bu təşkilata yeni nəfəs və güc verdi!*

*İlham Əliyev bu təşkilatın rolunu və imkanlarını qurumun özünə və özgələrinə əyani şəkildə göstərdi!*

*İlham Əliyev bu təşkilatı həm daxilən möhkəmləndirdi, həm də xarici nüfuzunu yüksəltdi!*

*İlham Əliyev bu təşkilatın imzasını imzalar içində göstərməyi bacardı, onu görməyi və nəzərə almağı hamıya qəbul etdirdi!*

**Cənab İlham Əliyevin bu quruma rəhbərliyi çox ağır və mürəkkəb bir dövrə təsadüf etdi.**

*Əvvəla,* dünya COVID-19 adlı qorxulu, yoluxucu xəstəliyə düçar olaraq başını itirmişdi və bu bəladan necə qurtaracağını kəsdirmirdi.

*İkincisi,* pandemiya təhlükəsi insanların istədikləri vaxt bir yerə toplaşaraq nəyi isə müzakirə etməyə, fikir mübadiləsi aparmağa, hansısa tədbirlər görməyə yol vermirdi.

*Üçüncüsü,* onlayn görüş və iclasların keçirilməsi, qəbul edilən qərarların icrası asan deyildi.

*Dördüncüsü,* üçüncü dünya müharibəsinin başlanması, dünyanın əsas diqqətinin bu müharibəyə yönəlməsi vəziyyətin ağırlığını daha da artırırdı.

**Cənab İlham Əliyevin biliyi, bacarıq və təcrübəsi, hadisələri irəlicədən müəyyən edərək vaxtında zəruri addımlar atması Qoşulmama Hərəkatına yeni nəfəs, güc və təsir imkanları verdi.**

Qurumun özünə, eyni zamanda başqalarının da ona inamı artdı, möhkəmləndi!

❖ ❖ ❖

Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil rəyi əsasında 2019-2022-ci illər üçün bu quruma sədr seçildi!

Azərbaycanın rəhbərliyi dövründə İlham Əliyevin gördüyü işləri bəyənərək yüksək qiymətləndirən təşkilat üzvləri onun fəaliyyət müddətini daha bir il uzatdılar.

Əslində, Azərbaycan quruma daha ilyarım başçılıq etməli oldu.

**Dünyada ikili standartların hökm sürdüyü, güclülərin öz iradələrini zəiflərə zorla qəbul etdirdiyi bir vaxtda cənab İlham Əliyev quruma rəhbərliyini ədalət və beynəlxalq hüququn prinsipləri əsasında həyata keçirərək bu sahədə də yeni nümunə yaratdı!**

*Belə ki, İlham Əliyev əvvəldən sonadək öz fəaliyyətini "Banduq prinsipləri" əsasında qurmaqla, ədaləti və beynəlxalq hüququ uca tutmaqla üzv ölkələrin qanuni maraqlarını inam və qətiyyətlə müdafiə etdi!*

Görünən bu idi ki, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə mübarizədə başını itirdiyi bir zamanda Qoşulmama Hərəkatı misli görünməmiş bir çağırışla bəlaya qarşı mübarizədə qlobal səyləri birləşdirməyə və daha effektli çalışmağa nail oldu.

**BMT-nin Qoşulmama Hərəkatından daha stajlı və təcrübəli olmasına baxmayaraq, bu mötəbər qurum da Azərbaycanın rəhbərliyi dövründə Qoşulmama Hərəkatından bəzi şeyləri əxz edə bildi.**

*Belə ki, 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının liderlər səviyyəsində ilk dəfə onlayn sammiti keçirildi.*

*Bundan bir neçə ay sonra - 2020-ci ilin dekabrında isə BMT Baş Assambleyasının onlayn qaydada xüsusi sessiyası baş tutdu.*

COVID-19 pandemiyası dövründə uzun axtarışlardan sonra xüsusi peyvənd tapılan zaman ondan dərhal tələbatı ödəyəcək qədər istehsal etmək və ehtiyacı olanların hamısına çatdırmaq mümkün olmadı.

Belə vəziyyətdən istifadə edən varlı və sözükeçən dövlətlər isə nəinki öz ehtiyaclarını ödəyəcək qədər, hətta ondan daha artıq vaksin alaraq ölkələrinə daşıdılar.

Əvəzində isə zəif və imkansız ölkələr peyvənd əldə edə bilmədiklərindən pandemiyada daha ağır itkilərə məruz qaldılar.

**Cənab İlham Əliyev bunu "peyvənd millətçiliyi" adlandıraraq hiddətlə qınadı, yolverilməz olduğunu açıq şəkildə bəyan etdi.**

*Üstəlik, belə ədalətsizlikdən əziyyət çəkən dövlətlərə peyvəndlə, habelə vəsaitlə yardım göstərilməsini təmin və təşkil etdi.*

*Azərbaycan özü də ÜST-yə 10 milyon ABŞ dolları ayırmaqla həmin ölkələrə dost əlini uzatdı.*

*Əvvəli qəzetin 3,4 oktyabr tarixli saylarında*

# O, müasir dünya siyasətini gözəl bilir

## Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dəfələrlə təsdiqini tapıb




Qoşulmama Hərəkatının gücünün və imkanlarının artırılması üçün onun institusional inkişafı da zəruri idi.

Cənab İlham Əliyev bu sahədə də islahat və yeniliklərə nail oldu.

Dəyişikliklər sürətlə və peşəkarlıqla aparıldı.

**Belə ki, 2021-2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması qurumun və onun sədri olan Azərbaycanın uğur və nailiyyəti sayıla bilər.**

Qarşıda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması vəzifəsi dayanır.

Prezident İlham Əliyev hələ 2012-ci ildə BMT Təhlükəsizlik Şurasına rəhbərliyi dövründə qəbul etdiyi qərar və qətnamələrin icrasına "seçmə üsulu" ilə yanaşan, ikili standartlardan yaxa qurtara bilməyən bu ali orqanda islahatların vaxtı çatdığını açıq şəkildə söyləmişdi.

*Artıq dünyanın bir çox siyasətçisi və lideri də eyni fikrə gələrək BMT-də ciddi islahatların vaxtının çatdığını bildirir.*

**Cənab İlham Əliyevin təbirincə desək, "BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır və hazırkı reallıqları əks etdirmir".**

Rusiya-Ukrayna müharibəsi BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında qarşıdurma və ziddiyyət yaradıb.

Burada normal müzakirələrin aparılması və obyektiv qərarların qəbulu sual altındadır.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin 5 iyununda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər səviyyəsində görüşü zamanı bu tələbi açıq və qəti şəkildə qoydu: *"BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar".*

❖ ❖ ❖

Dünya siyasətini dərindən bilmək, əslində, dünyada gedən proseslərdən dərhal və dərindən baş çıxarmaq, hadisə və olayları obyektiv təhlil etməyi bacarmaq, düzgün proqnozlar vermək və doğru nəticəyə gəlməkdir!

**İlham Əliyev beynəlxalq təşkilatlara və Azərbaycana rəhbərlik etdiyi iyirmi il ərzində bu istedad və qabiliyyətini dəfələrlə göstərmişdir.**

**Ona dünyada dərin hörmət və nüfuz qazandıran əsas amillərdən biri də məhz budur!**

Rusiya-Ukrayna müharibəsi ilə, əslində, üçüncü dünya müharibəsi başlanıb!

Hamı etiraf edir ki, sonda bu müharibə yeni dünya düzəninin yaranmasına gətirib çıxaracaqdır.

İkinci Dünya müharibəsi ilə əlamətlər də üst-üstə düşür.

O vaxt Avropanı Hitlerin işğalından xilas etmək və faşizmdən yaxa qurtarmaq üçün dövlətlər birləşərək anti-Hitler koalisiyasını yaratdılar.

Bu gün NATO ölkələrinin simasında Rusiyaya qarşı koalisiya yaradılıb.

Ukrayna canlı qüvvəsi, NATO isə silah-sursatı ilə Rusiyaya qarşı vuruşur.

**Yalnız cənab İlham Əliyev həqiqəti ucadan söyləyərək üçüncü dünya müharibəsinin başlandığını bildirdi.**

**Hadisələrin gedişatı da bu qiymətləndirmənin dürüstlüyünü təsdiq edir.**

*İlham Əliyev dünyanı fəlakətdən qurtarmağın yollarını konkret formada göstərir.*

*Əslində, İlham Əliyev dünyanın özü tərəfindən müəyyənləşdirilən prinsiplərə qayıdılmasının zəruriliyini bildirir.*

*Həmin prinsiplər isə "Bandunq prinsipləri" adlanır.*

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin hazırlanması və imzalanmasında da bu beynəlxalq prinsiplər əsas götürülmüşdür.

Həmin prinsiplərə bir daha birlikdə nəzər salaq:

- Dövlətlər bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyırlar;
- Bir-birinə ərazi iddialarının olmadığını bəyan edirlər və təsdiq edirlər;
- Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə təhdid törətmir, gücdən istifadədən çəkinirlər;
- Sərhədlərin delimitasiyası və demarkasiyası aparılır, diplomatik əlaqələr qurulur;
- Nəqliyyat və kommunikasiya əlaqələri yaradılır.

**Xüsusi vurğulanmalıdır ki, cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə xarici siyasətində daim "Bandunq prinsipləri"nə əməl etmişdir.**

❖ ❖ ❖

Azərbaycan özünün ən çətin və mürəkkəb problemini uğurla həll etmiş, otuz il işğal altında qalan torpaqlarını 44 günlük Vətən müharibəsi ilə geri qaytarmışdır.

Azərbaycanın hərbi yola əl atmasının başlıca səbəbi otuz il ərzində BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin icrasız qalması, ATƏT-in Minsk qrupunun danışıqları imitasiya edərək dişsiz və nəticəsiz fəaliyyəti, ikili standartların mövcudluğu və işğalçıya qarşı heç bir sanksiyanın tətbiq edilməməsi, habelə Ermənistanın işğal etdiyi əraziləri sülh yolu ilə geri qaytarmaqdan müxtəlif bəhanələrlə boyun qaçırması olmuşdur.

*Bütün bunları aydın görən cənab İlham Əliyevin müstəqil Azərbaycanı iqtisadi cəhətdən gücləndirməsi, beynəlxalq qurum və təşkilatlarda səmərəli fəaliyyət göstərərək ölkəmizin haqq işini dəstəkləyənlərin sayını artırması, habelə ən yeni silahlarla silahlandırılaraq ən yeni strategiya və taktika əsasında vuruşmağa qadir ordu qurmasıdır.*

Yeri gəlmişkən, İlham Əliyev uzaqgörənliyinin daha bir real faktını diqqətə çatdırırıq:

44 günlük Vətən müharibəsi dövründə Ermənistanın "böyük bacısı" və "fədakar hamisi" Fransa BMT Təhlükəsizlik Şurasının iclasını çağırtdıraraq Azərbaycanın əleyhinə yeni qətnamə (əvvəlkilərə istinad edilməyən) qəbul olunmasına təşəbbüs göstərdi.

Lakin Azərbaycanın Qoşulmama Hərəkatından olan dostları belə ədalətsiz və subyektiv hərəkətin qarşısını qətiyyətlə aldılar.

**İlham Əliyev hələ də ölkəmizə qarşı təhdid və təhlükələrin mövcudluğunu göstərir, eyni zamanda bununla bağlı Azərbaycanın daim zəruri addımlar atdığını, öz maraqlarını qorumaq və müdafiə etmək iqtidarında olduğunu bəyan edir.**

Onun fikirlərindən müəyyən çıxarışlara birlikdə nəzər salaq:

- "Dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki beynəlxalq hüququn təminatçısı rolunu öz üzərlərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam.
- Ölkəmizin qüdrətini artırırıq. Çünki bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz.
- Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra rahat yaşaya bilər və yaşamalıdır.
- Bizim istədiyimiz təkcə böyük yükləri aşıran tranzit ölkə olmaq deyil. Bizim istəyimiz odur ki, bu nəqliyyat marşrutları üzərində istehsal sahələri yaradılsın, biznes imkanları yaradılsın, sərmayə qoyulsun".

❖ ❖ ❖

**İlham Əliyevin ən böyük uzaqgörənliyinə və hadisələri qabaqlama məharətinə nümunə Azərbaycan ilə Avropa İttifaqı arasında yaranmış sıx və etibarlı əməkdaşlıq münasibətləridir.**

Azərbaycan heç zaman Avropa İttifaqına üzv olmaq niyyətinə düşməyib!

Cənab İlham Əliyev bu "xristian klubu"nda Türkiyə və Azərbaycana yer olmadığını yaxşı bilir!

Başqa bir mühüm səbəb isə Avropa İttifaqına üzv olmaq üçün qurum tərəfindən namizədə əməl etməsi tövsiyə olunan şərtlərdir.

Həmin şərtləri İlham Əliyev belə dəyərləndirib:

- İrəli sürülən şərtlər, əslində, namizədin boynuna birtərəfli qaydada ağır yük qoyur!
- Öz üzərinə heç bir öhdəlik götürmədən üzv olmaq istəyənləri müəyyən tələbləri məcburən yerinə yetirməyə vadar etmək ədalətli sayıla bilməz!

Müxtəlif şərt və bəhanələrlə uzun müddət Türkiyəni qapı ağzında gözlətmək deyilənlərin təsdiqidir!

**Azərbaycan Prezidenti heç zaman Aİ-yə üzv olmağa can atmasa da, atdığı unikal addımlar sayəsində Avropa İttifaqı ilə Azərbaycan arasında xüsusi əməkdaşlıq münasibətləri formalaşıb.**

Bu münasibətlər hər iki tərəfi tam qane edir...

Xüsusən də indiki zamanda, Aİ-nin Rusiya qazından imtina etməsi və Ukrayna ilə müharibə səbəbindən Rusiyaya çoxsaylı sanksiyaların tətbiq olunduğu şəraitdə!

**Bu məqamda Ulu Öndər Heydər Əliyevin İlham Əliyev haqqında söylədiyi fikrin ikinci hissəsi - dünya iqtisadiyyatını gözəl bilməsi də öz təsdiqini tapır!**

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək inkişafını təmin edəcək transmilli layihələrin gerçəkləşdirilməsinin də əsasını qoydu.

AXC-Müsavat cütlüyünün şəxsi maraqlarını öndə tutmaları səbəbindən neft kontraktlarını imzalaya bilməmələri məlum faktdır.

Ümummilli Liderimiz dünyanın aparıcı dövlətlərinin maraqlarını ölkəmizin maraqları ilə uzlaşdırmağa, Azərbaycanın riskli dövrdə yaşamasına baxmayaraq, şəxsi nüfuzu sayəsində xarici investisiyaların cəlbinə nail oldu!

Üstəlik, Azərbaycan nefti ilk dəfə qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarıldı!

Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkildi.

**Maliyyə çətinliklərinə baxmayaraq, cənab İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişini, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin işə salınmasını təmin etdi, dünya okeanına çıxışı olmayan Azərbaycanı beynəlxalq logistika mərkəzinə, Xəzərdə ən böyük mülki donanma sahibinə çevirdi!**

Hazırda Zəngəzur dəhlizinin açılmasına və Orta dəhlizin işə salınmasına ciddi hazırlıqlar gedir.

Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2023-cü ildə Çin telekanalına müsahibəsindən bir cümləni xatırlatmaq istərdik:

*"30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb - dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı".*

- Sanki İlham Əliyev Rusiya ilə Ukrayna arasında müharibə olacağını qabaqcadan dəqiqliklə bilirdi;
- Sanki İlham Əliyev Avropa dövlətlərinin Rusiya neftindən və qazından imtina edəcəklərini qabaqcadan proqnozlaşdırmışdı;
- Sanki İlham Əliyev Avropa İttifaqının Azərbaycanın təbii qazına və "yaşıl enerji"sinə ciddi ehtiyac duyacağını irəlicədən görürdü.

Hazırkı reallıq budur ki, TAP və TANAP genişləndiriləndən, "Cənub qaz dəhlizi" işə salınandan sonra Avropa bu sahədə Azərbaycanla ciddi və geniş əməkdaşlığa başladı!

**"Yaşıl enerji" istehsalına start verilməsi isə birbaşa İlham Əliyevin adı ilə bağlı möhtəşəm layihələrdəndir.**

Müzəffər Ali Baş Komandan Qarabağ müharibəsini zəfərlə başa vuraraq torpaqları işğaldan azad etdikdən sonra buradakı su resurslarından səmərəli istifadə etməklə modul tipli elektrik stansiyalarında enerji istehsalını qısa müddətdə qaydaya salmağı bacardı.

Bərpa olunan enerji növləri hesabına təkcə Qarabağda və Şərqi Zəngəzurda deyil, Abşeronda və Naxçıvanda da "yaşıl enerji" istehsalı sürətlə yoluna qoyulur.

Bu məqsədlə ölkəmizə xeyli miqdarda xarici investisiya da cəlb olunmuşdur.

Artıq "yaşıl enerji"nin Avropaya ixracı üçün Qara dənizin dibi ilə yeni kabel xətti çəkilişi də reallığa çevrilməkdədir!

❖ ❖ ❖

**İlham Əliyev siyasətinin ən böyük üstünlüyü onun sözü ilə əməlinin bir olmasıdır!**

**İlham Əliyev Azərbaycana qarşı qərəzli, düşmən münasibəti bəsləyənlərə qarşı nə qədər sərt və barışmazdırsa, Azərbaycanın dostları ilə bir o qədər mehriban və səmimidir.**

**İlham Əliyev ölkənin milli maraqlarını qorumaqla ona dostlar qazandırmağı və həqiqi dostlarımızın sayını daim artırmağı da yaxşı bacarır.**

**İlham Əliyev bu gün həm siyasətçi, həm diplomat, həm də bir sərkərdə olaraq qalibdir!**

Hazırda Azərbaycan Böyük qayıdışa ciddi hazırlıq görür, bu sahədə dost ölkələrin imkanlarından da bəhrələnir.

Böyük qayıdış proqramına əsasən, birinci mərhələdə 8 şəhər və 100 kənd yenidən qurulacaq, 2026-cı ilə qədər təkcə Qarabağ regionuna 140 min nəfərin qaytarılması təmin ediləcəkdir.

Bütün bunlar böyük vəsait və quruculuq işləri tələb edir.

*Bu istiqamətdə görülən işlərin əsas ağırlığı dövlət başçısının çiyinlərindədir!*

*Dövlət başçımız daim xalqa verdiyi sözü tutub, vədini yerinə yetirib!*

*Böyük qayıdışın tam reallaşacağı kimsədə zərrə qədər şübhə doğurmur!*

❖ ❖ ❖

Azərbaycan dünyada öz yolu olan dövlətdir!

Bu yol Heydər Əliyev yolu adlanır!

Bu yol islahatlardan və möhtəşəm quruculuqdan keçən yoldur!

Bu yol 44 günlük Vətən müharibəsində xalqımıza zəfər qazandıran yoldur!

Bu yol inkişaf və quruculuq, qələbələr yoludur!

Bu yol dostluq, əməkdaşlıq yoludur!

Bu yol Azərbaycan xalqını daim öz hədəflərinə, yüksək rifaha çatdıran yoldur!

Bu yol həm də İlham Əliyev yoludur!

**Bəxtiyar SADIQOV**



# Ədalətin Zəfəri

## İLHAM ƏLİYEV separatçı rejimi məhv etdi, cinayətkar rəhbərləri isə Bakı həbsxanasına gətirtdi



Dünya ermənilıyinin ikiəsrlik avantürasını, "Böyük Ermənistan" xülyasını 44 günə məhv edib, 23 saata tarixdən birdəfəlik silən İlham Əliyev həyata keçirdiyi qətiyyətli siyasəti ilə bir daha hər kəsə göstərdi ki, onun sözü imzası qədər keçərlidir.

Əgər Prezident hansısa sözü deyirsə və ya hansısa vədi verirsə, onu mütləq tezliklə reallığa çevirir. Bunu artıq təkcə Azərbaycan xalqı deyil, bütün dünya bilir.

Son illərdə dünya siyasi arenasında baş verən hadisələr, xüsusən də Avrasiyada irimiqyaslı enerji layihələrinin reallaşması və Avropanın enerji təhlükəsizliyi məsələləri ilə bağlı hər zaman tam müstəqil və qətiyyətli siyasət yürüdən İlham Əliyev ilk növbədə Azərbaycana etibarlı tərəfdaş statusu qazandırıb. Bütün bu proseslərdə Azərbaycan Prezidentinin ortaya qoyduğu mövqe hər zaman təqdir edilib və nümunə kimi göstərilib.

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində isə İlham Əliyev konkret olaraq qətiyyətli mövqe nümayiş etdirib. Hər zaman münaqişənin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bəyan edən İlham Əliyev İkinci Qarabağ müharibəsində qalib tərəf olmasına baxmayaraq, məğlub Ermənistana yenə də sülh təklif etməklə humanist siyasətini bir daha göstərib. Lakin havadarlarının boş-boş vədlərinə arxayın olan Ermənistan siyasi rəhbərliyi və Qarabağda özünü qondarma "respublika" kimi təqdim edən terrorçu qurumun separatçıları bu çağırışa məhəl qoymayaraq siyasi şantajlara, hərbi təxribatlara əl atmaqla Azərbaycana "güc" göstərməyə çalışdılar.

İlham Əliyev müharibədən ötən 3 il ərzində dəfələrlə keçmiş hərbi xuntanın tör-töküntülərinə mesaj yollayaraq bəyan etdi ki, istənilən təxribata ağır cavab veriləcək və terrorçuların başı çox pis şəkildə əziləcək.

Çox keçmədi və Prezident hər zamankı kimi sözünün sahibi kimi nəinki separatizmin başını əzdi, həm də 200 illik erməni oyunbazlığını məhv etdi. Sentyabrın 19-da keçirilən 23 saatlıq antiterror tədbirləri ilə Azərbaycanın suverenliyi tam təmin olundu. Belə demək mümkünsə, İlham Əliyev Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun tam bərpasını 23 saat ərzində yekunlaşdırdı.

İlham Əliyevin digər bəyanatı isə o idi ki, əli Azərbaycan xalqının qanına batmış, xalqımıza qarşı terror aktları törətmiş hər bir separatçı cəzasını alacaq. Bu bəyanatın da reallaşması çox çəkmədi. Özünü buraxdığını elan edən qondarma qurumun "rəhbər"ləri indi bir-bir həbs edilərək Bakıya gətirilir.

Azərbaycan Dövlət Təhlükəsizlik Xidməti tərəfindən bu günə kimi, 8 terrorçu saxlanılıb. Onlardan bəziləri barədə həbs qəti imkan tədbiri seçilib. Bəzilərinin isə sorğusu davam etdirilir. Ən son oktyabrın 3-də Qarabağdakı separatçıların keçmiş "prezident"ləri Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, "Daşnakasütyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə DTX tərəfindən Bakıya gətirilib və yəqin ki, proses davamlı olacaq. Terrorçular törətdikləri cinayətlərə görə layiqli cəzalarını alacaqlar.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Xocalı cəlladlarının qolları qandallandı

Azərbaycan dövləti xalqımıza qarşı qətliamlar və soyqırımlar törədən erməni müharibə canilərinin tutulması ilə bağlı çoxdan işlər aparırdı və onları beynəlxalq axtarışa vermişdi. Hərbi cinayətlər törətmiş şəxslərin mütləq cəzalandırılacağını Azərbaycan dəfələrlə bəyan etmişdi. İkinci Qarabağ savaşındakı zəfərimizdən sonra erməni caniləri dövlətimiz tərəfindən saxlanılırlar.



Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Azər Badamov deyib ki, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdəndə dünya səssiz qaldı: "Cəzasızlıq Ermənistanın ərazilərimizdə işğalı əbədiləşdirmək həvəsini artırdı və yeni ərazilər uğrunda cəfəng ideyalar irəli sürməyə başladı. Ona görə də Ermənistan Qarabağda separatizm yuvasını gücləndirməyə və Azərbaycanı yenidən hədələməyə davam edirdi. Lakin vədə yetişdi, Azərbaycan 44 günlük Vətən müharibəsində öz ərazilərini düşmən tapdağından azad etdi. Buna baxmayaraq, Qarabağda separatizm yuvası qara yara kimi qalmaqda davam edirdi. Dövlətimiz isə bu yaranı da kəsib atacağını və bütün cinayətkarların həbs ediləcəyini bildirmişdi".

Deputat vurğulayıb ki, Ermənistan separatçıları dəstəkləməkdə davam edir və Qarabağda 10 mindən çox qeyri-qanuni silahlısını saxlayırdı. Hətta qeyri-qanuni yollarla separatçıları yeni silahlarla təchiz edir, fortifikasiya qurğuları qurmağa çalışır və mövqelərimizə qarşı təxribatları intensivləşdirirdi. Bütün bunlar azmış kimi, sentyabrın 2-də Paşinyan Azərbaycanın ərazi bütövlüyünə təhlükə yaradan ritorikanı səsləndirdi və 9 sentyabrda qondarma quruma yeni rəhbər seçdilər. Vəziyyətin dözülməzliyini görən Azərbaycan 19-20 sentyabr tarixində 24 saata yaxın bir müddətdə lokal xarakterli antiterror tədbirləri keçirməyə məcbur oldu. Beləliklə, qeyri-qanuni silahlılar tərk-silah olundu və Qarabağda separatçıların yuvası dağıdıldı.

Azər Badamov qeyd edib ki, Azərbaycan dövləti sadə ermənilərin ərazilərimizdə yaşaması üçün hər bir şəraitin yaradılacağını əvvəldən bəyan edib. Bununla yanaşı, cinayətlərdə əli olan separatçıların həbs olunaraq qanun qarşısında cavab verəcəklərini bildirib. Beləliklə, antiterror tədbirlərindən sonra keçmiş qondarma qurumun başında duran və əli dinc azərbaycanlıların qanına batmış hərbi cinayətkarlar həbs olunmağa başlandı.

"Əvvəlcə Vaqif Xaçaturyan, sonra da Ruben Vardanyan həbs olundu. Ruben qaçaraq canını törətdiyi cinayət əməllərinə görə cəzalandırılmaqdan qurtarmaq istəsə də, baş tutmadı. Sərhəd xidmətimiz onu saxladı və həbs olunaraq onun cinayət işinin araşdırılmasına başlandı. Vardanyanın həbs olunmasından qorxan digər cinayətkarlar da canlarını qurtarmaq üçün gizləndilər", - deyə deputat bildirib.

Azər Badamovun sözlərinə görə, heç bir cinayətkar Azərbaycan dövlətinin gözündən yayına bilməz. Bunun nəticəsidir ki, elə bu günlərdə həmin canilərin bir neçəsi də saxlanılaraq Bakıya gətirilib. Azərbaycanın Dövlət Təhlükəsizlik Xidməti və hüquq-mühafizə orqanları separatçıların törətdikləri hərbi cinayətlərlə bağlı zamanında cinayət işləri açmış və onlar beynəlxalq axtarışa verilmişdi. Bu gün isə zamanı gəlib çatıb və onlar elə öz ərazilərimizdə həbs olunaraq törətdikləri cinayətlərinə görə istintaqa cəlb olunurlar.

"Lakin ərazilərimizdən qaçmağa müvəffəq olmuş cinayətkarlar da az deyil. Onlar haqqında da cinayət işi açılmış və beynəlxalq axtarışa veriliblər. Vaxt gələcək əli dinc azərbaycanlıların qanına batmış bütün hərbi cinayətkarlar həbs olunaraq cinayət məsuliyyətinə cəlb olunacaqlar. Cinayət cəzasız qalmamalıdır, hər kəs öz əməlinə görə cavab verməlidir", - deyə deputat əlavə edib.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Müharibə caniləri layiqli cəzalarını alacaqlar

Vətən müharibəsində 30 illik işğala son qoyan Azərbaycan bununla kifayətlənmədi və xalqımıza qarşı zaman-zaman müxtəlif cinayətlər törətmiş ermənilərin həbs olunması üçün də hərəkətə keçdi. Bunun nəticəsidir ki, əli minlərlə azərbaycanlının qanına batmış, adları daim təxribatlarda səsləndirilən erməni canilər bir-bir həbs olunurlar.



Bu kimi faktlar sübut edir ki, Prezident İlham Əliyevin müharibə cinayətkarlarının cəzasız qalmayacağı ilə bağlı verdiyi bəyanatlar hər keçən gün özünü doğruldur. Müharibə canilərinin həbs olunaraq cəzalandırılması üçün lazımi işlər bu gün də davam etdirilir.

Milli Məclisin deputatı Ceyhun Məmmədov "Azərbaycan"a bildirdi ki, Azərbaycan dövləti xalqımıza qarşı cinayətlər törətmiş bütün ermənilərə qarşı lazımi addımları atacaq və onları mütləq cəzalandıracaq. Ermənilər əməllərinin cəzasız qalacağını düşünsələr də, son hadisələr də göstərir ki, belə olmayacaq. Sözsüz ki, xalqımıza və dövlətimizə qarşı düşmənçilik yolunu tutub, zaman-zaman müxtəlif vəhşiliklər törədən cinayətkarlar cəzasız qalmayacaqlar. Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş addımları sayəsində bütün hədəf və məqsədlərimizə nail olacağıq.

"Onlar bizim torpaqlarımızı talayıb, ərazilərimizi barbarcasına dağıdıb və ölkəmizə qarşı daim zalım və zülmkar münasibət sərgiləyibl ər. Nəzərə almaq lazımdır ki, xalqımıza qarşı belə cinayətlər törətmiş ermənilərin sayı yüzlərlədir. Ona görə də bir neçə cinayətkarın həbsi ilə kifayətlənmədən Azərbaycan bu istiqamətdə addımlarını davam etdirir və sona kimi də davam etdirəcək. Əli yüzlərlə, minlərlə azərbaycanlının qanına bulaşmış cinayətkarların hər biri mütləq cəzasını alacaq", - deyə deputat bildirib.

*N.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan öz uğurları ilə USAİD-in planlarını alt-üst edir

Bir neçə həftə əvvəl Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkədə vətəndaş iğtişaşları və zorakılıqla hakimiyyət dəyişikliyinin planlaşdırıldığı barədə açıqlama yayılıb.

Bu günlərdə isə Gürcüstanın DTX-si tərəfindən bildirilib ki, Tbilisidə hakimiyyət dəyişikliyində iştirak edəcək fəallar üçün təlim keçirilib. Məlumatlardan belə aydın olur ki, qonşu ölkədə hakimiyyətin devrilməsinə yönəlmiş cəhdlərin təşkilatçısı ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyidir (USAİD).




Gürcüstan xüsusi xidmət orqanlarının aşkar etdikləri bu məsələ USAİD-in iştirakı ilə bu ölkədə hakimiyyətin zorla dəyişdirilməsinə hesablanmış ilk hadisə deyil. Ümumiyyətlə isə adında inkişaf olsa da, USAİD-in fəaliyyət göstərdiyi bütün ölkələrdə pozuculuq fəaliyyəti ilə məşğul olduğu dəfələrlə öz təsdiqini tapmışdır. Keçmiş sovet ittifaqının bir çox ölkələrində bu təşkilatın adı hər zaman siyasi proseslərə açıq müdaxilədə, hakimiyyət çevrilişlərinə cəhdlərdə və bütün bunlar üçün gənclərin radikal şəkildə yönləndirilməsi və s. hallanıb.

Bu gün Gürcüstan və digər ölkələrdə USAİD-in iştirakı ilə ortaya çıxan problemlər müxtəlif formalarda Azərbaycanda da yaşanıb. USAİD maliyyə ayırdığı, dəstəklədiyi təşkilatlar vasitəsilə təmsil etdiyi siyasi mərkəzlərin maraqları naminə respublikamızda da pozuculuq fəaliyyəti həyata keçirməyə çalışıb.

Xatırladaq ki, 2014-cü ildə USAİD tərəfindən Azərbaycanda "müstəqil medianın inkişafı" üçün 2,4 milyon dollar məbləğində qrantın elan olunması da bu qurumun respublikamızdakı pozuculuq cəhdlərinin dəstəklənməsinə hesablanmışdı. Qrant vasitəsilə özünü guya şəffaf bir qurum kimi göstəməyə çalışan USAİD bu vəsaiti onun maraqlarını təmin edən media orqanlarına ayırmışdı.

USAİD -lə yanaşı, ABŞ Milli Demokratiya İnstitutu (MDİ) da elə onun kimi respublikamızda zaman-zaman pozuculuq fəaliyyətlərinə cəhd göstərib. 2014-cü ildə MDİ-nin Bakıdakı nümayəndəliyinin keçmiş rəhbəri Aleks Qriqoryevs bu məqsədlə özünün bank hesabından 2 milyon dollara yaxın vəsaiti çıxarıb bəzi QHT-lərə, konkret şəxslərə paylamışdı. Bu adamın adı digər keçmiş sovet respublikalarında da bu cür pozuculuq fəaliyyətləri ilə məşğul olmaqda keçir.

Son dövrlərdə Azərbaycanda müharibə əleyhinə hərəkatın - "NoWar"ın meydana çıxmasında USAİD və digər xarici təşkilatların fəaliyyətinin nəticəsidir. Eyni zamanda "feminist"lərə dəstək verməklə USAİD kimi təşkilatlar xalqımızın milli dəyərlərinə qarşı çıxırlar.

Əlbəttə, Azərbaycan güclü dövlətdir, cəmiyyətimiz də sağlamdır, milli və dövlətçilik amalları uğrunda səfərbərdir. Buna görə USAİD kimi təşkilatların bütün antimilli fəaliyyətləri Azərbaycanda hər zaman fiaskoya uğrayıb. Vətən müharibəsi və son olaraq Qarabağda Azərbaycan hakimiyyətinin bərqərar olması USAİD və onun kimi təşkilatların bütün planlarını alt-üst etdi.

Ümumiyyətlə isə, reallıq odur ki, USAİD-in Azərbaycanda fəaliyyətinə ehtiyac yoxdur.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# USAİD-in "qara oyunları"

## ABŞ bu təşkilat və digər qurumlar vasitəsilə yeni dövlət çevrilişlərinə cəhd göstərir?

"ABŞ-nin USAİD təşkilatının adı yalnız Gürcüstanda deyil, bir çox dövlətlərdə qarşıdurma, iğtişaş, dövlət çevrilişlərinə cəhd məsələlərində dəfələrlə hallanıb. On il əvvəl təşkilat Azərbaycanda da mövcud idi və ümumi baxsaq, cəmiyyətin inkişafına töhfə verən layihələrin həyata keçirilməsini təmin edib. Amma təşkilatın adı çox vaxt siyasi məsələlərdə çəkilib".



Bu sözləri "Azərbaycan"a açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov bildirdi. Onun fikrincə, Gürcüstanın siyasi partiyasının və Dövlət Təhlükəsizlik Xidmətinin bəyanatları həqiqəti əks etdirir. Çünki həmin məlumatlarda bu təşkilatın maliyyə dəstəyi əsasında hakimiyyət dəyişikliyi məqsədilə zorakı etiraz aksiyası metodları üzrə təlim keçən üç serbiyalı üzvünün Gürcüstanda səfərdə olduqları və onların burada tədbir təşkil etdikləri qeyd olunur: "Tədbirdə Gürcüstandakı gənclər təşkilatları, bir çox bloqçu və gənclər iştirak ediblər. Görüşün əsas məqsədi oktyabr, dekabr aylarında Gürcüstanda iğtişaşlar yaratmaq və dövlət orqanları qarşısında çadırlar quraraq itaətsizlik göstərib hökumət çevrilişini təşkil etmək imiş. Bu, Gürcüstan DTX-nin məlumatında da qeyd olunub. Həmin nümayəndələr Dövlət Təhlükəsizlik Xidmətinə dəvət olunublar. Onların izahatları törətdikləri əməllərlə ziddiyyət təşkil edib, məqsədlərinin bu olmadığını bildiriblər və Gürcüstan ərazisini tərk ediblər".

Deputatın sözlərinə görə, həm hakim "Gürcü arzusu" partiyasının bəyanatında, həm də DTX-nin açıqlamasında qeyd olunur ki, ABŞ Gürcüstanda 2003-cü il hadisələrini təkrar etmək istəyir. Artıq rəsmi Tbilisi bununla bağlı hərəkətə keçib. Konkret mövqe ortaya qoyulub ki, ABŞ USAİD və digər qurumlar vasitəsilə Gürcüstanda dövlət çevrilişinə cəhd göstərir.

"USAİD və digər belə təşkilatlar nizamnaməsində demokratiya, insan haqlarından, gender bərabərliyindən, zorakılığa qarşı tədbirlərdən bəhs etsə də, əslində, bunun əksinin şahidi oluruq", - deyə qeyd edən deputat düşünür ki, heç bir dövlət bundan sığortalanmayıb. Ölkəmizə gəldikdə, gənclərimiz bu mənada daha vətənpərvər, daha mütərəqqi, milli-mənəvi dəyərlərə malikdirlər: "Azərbaycan dövləti müvafiq fondlarla gənclər təşkilatlarını, hətta gənclərin fərdi layihələrini maliyyələşdirir. Qrant layihəsini dövlət özü təmin edir. Digər dövlətlərə çevriliş, itaətsizlik ixrac edən hər bir təşkilat barədə məlumatlıyıq. ABŞ ilə yanaşı, Avropa ölkələrinin də belə qurumları mövcuddur. Bir çoxu bəyanatlarında selektiv yanaşma ortaya qoyur. Son zamanlar Gürcüstanda baş verən hadisələrə dövlətin reaksiyası onu deməyə əsas verir ki, belə problemlər artıq qonşu ölkədə də var".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Şərtləri İlham Əliyev diktə edir

## Heç bir qüvvə Azərbaycanın qərarına təsir edə bilməz



**Azərbaycanın suverenliyinin tam təmin edilməsini şərtləndirən 23 saatlıq antiterror əməliyyatlarından sonra Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində yaranan yeni reallıqlar göstərir ki, məğlub ölkənin barışdan başqa çıxış yolu yoxdur. İndi tərəflər davamlı sülhün əldə edilməsi üçün bütün səylərini səfərbər etməlidirlər.**

Sülh danışıqlarında isə Avropa İttifaqı və Rusiya vasitəçilik missiyasını həyata keçirir. Bu istiqamətdə növbəti görüşün oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilməsi gözlənilirdi.

Hətta sentyabrın 26-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, onun diplomatik müşavirləri Saymon Mordyu və Maqdalena Qrononun rəhbərliyi ilə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında keçirilən görüşdə bu məsələ ətrafında müzakirələr aparılmışdı.

Sülh müqaviləsinin bağlanmasında Prezident İlham Əliyev hər zaman konstruktiv mövqe nümayiş etdirib və Azərbaycanın sülhə hazır olduğunu dəfələrlə bəyan edib. Sülh müqaviləsi yalnız Azərbaycanın irəli sürdüyü şərtlər əsasında bağlana bilər. Eyni zamanda Ermənistan rəhbərliyi də Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir neçə dəfə bəyan edib.

Bu gün Qranadada keçirilməsi nəzərdə tutulan görüş isə baş tutmayacaq. Bunun səbəbi isə Türkiyənin bu danışıqlarda iştirakına icazənin verilməməsidir. Çünki Azərbaycan görüşdə Türkiyənin iştirakını təklif etmişdi. Amma Ermənistanın "böyük bacısı" Fransanın və son zamanlarda terrorçuların müdafiəsinə qalxan Almaniyanın "işbirliyi" nəticəsində qardaş ölkənin danışıqlarda iştirakına mane yaradıb.

Artıq görünən odur ki, sülh danışıqlarında da Azərbaycana qarşı çirkin kampaniya aparmaqla nəyəsə nail olmağa çalışırlar. Bu prosesdə Fransanın oyunlarını dünya açıq şəkildə görməkdədir. Son "bəyanatlar", Ermənistana təşkil edilən səfərlər, məğlub ölkəni silahlandırmaq həvəsi və hətta özünü "ədalətli" vasitəçi kimi aparan Aİ Şurasının prezidenti Şarl Mişelin ölkəmizi ittiham edən əsassız bədnam açıqlamasına, əlbəttə ki, Azərbaycanın reaksiyası belə də olmalı idi.

Ən əsası odur ki, bu gün qalib sərkərdə kimi şərtləri də İlham Əliyev diktə edir və Azərbaycan Prezidenti regiondan uzaq ölkələrlə bölgənin problemlərini müzakirə etməyə lüzum görmür. Çünki sülhlə bağlı məsələlər yalnız regional çərçivədə müzakirə və həll edilə bilər.

Lakin bu, o demək deyil ki, Azərbaycan ümumilikdə sülh danışıqlarından imtina edir. Qalib ölkə yalnız əvvəlki Aİ-Azərbaycan-Ermənistan üçlü formatda keçiriləcək görüşdə iştirak edə bilər və bundan heç vaxt da imtina etməyib.

Bu, Azərbaycanın qərarıdır və bu yolda heç bir qüvvə regionun lider dövlətinin qərarına təsir edə bilməz. Çünki Azərbaycan haqlı və güclüdür.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Azərbaycanın tələblərinə əməl olunmalıdır

**Azərbaycan Qarabağda suverenliyini tam bərpa etdikdən dərhal sonra orada dövlət idarəçiliyini də təmin etməyə başlayıb. Xankəndidə artıq bir sıra dövlət strukturlarının fəaliyyətinə start verilib. Burada məqsəd həm də bölgədə yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyasını təmin etməkdir.**



Bununla bağlı "Azərbaycan"a danışan Milli Məclisin deputatı Kamran Bayramov bildirib ki, vaxtilə kriminal cinayətkar xuntanın yerləşdiyi ərazilər sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlətimizin tam nəzarətinə keçib. Cəmi 23 saatlıq antiterror tədbirlərindən ötən qısa vaxtda isə Xankəndidə erməniəsilli sakinlərin yaşadığı ərazilərdə Azərbaycanın bir neçə dövlət orqanı ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində artıq fəaliyyətə başlayıb.

Deputat qeyd edib ki, burada qarşıda duran əsas məsələlərdən biri də həmin ərazilərdə yaşayan erməniəsilli sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına nail olmaqdır. "Məlumdur ki, Azərbaycan hökuməti reinteqrasiya ilə bağlı danışıqların aparılması məqsədilə məsul şəxs müəyyən edib və tərəflər arasında artıq bir neçə görüş baş tutub. Həmçinin həmin ərazilərdə erməniəsilli sakinlərin normal yaşayışını təmin etmək məqsədilə onlara humanitar yardım göndərilib, müəyyən infrastruktur işləri görülüb və hətta Prezident Administrasiyası tərəfindən reinteqrasiyaya dair proqram da qarşı tərəfə təqdim edilib".

Kamran Bayramovun dediyinə görə, Azərbaycan tərəfi vətəndaşlığımızı qəbul edərək bizim ərazilərimizdə yaşamaq istəyən ermənilərin təhlükəsizliyinə zəmanət verir. Onların hüquq və təhlükəsizliklərinin qorunacağı barədə dəfələrlə bəyanat verilib. Şübhə yoxdur ki, müvafiq proqramlar çərçivəsində nəzərdə tutulmuş tədbirləri yerinə yetirməklə Qarabağın erməni əhalisinin reinteqrasiyası asanlaşdırılır.

"Qarabağda yaşayan ermənilər kütləvi şəkildə Ermənistana axın etsələr də, Azərbaycan hökuməti qeyd edilən həmin erməniəsilli sakinlərin istədikləri vaxt Xankəndiyə qayıda biləcəklərini dəfələrlə bəyan edib. Sadəcə, əsas şərtə əməl olunmalı, Azərbaycan vətəndaşlığı qəbul edilməli, qanunlarımıza hörmətlə yanaşılmalıdır. Nəzərə almaq lazımdır ki, Konstitusiyada nəzərdə tutulmuş hüquqlarla yanaşı, öhdəliklərin icrası da çox vacibdir", - deyə deputat söyləyib.

Kamran Bayramov əlavə edib ki, həmin ərazilərdə birgəyaşayışdan yalnız reinteqrasiya məsələləri həll olunduqdan sonra danışa bilərik. Təbii ki, bizim vətəndaşlarımız da doğma torpaqlara qayıdacaqlar. Hazırda həyata keçirilən tədbirlər də gələcəkdə birgəyaşayışın asanlaşdırılmasına və keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışına xidmət edir.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Qanun qarşısında bir-bir cavab verəcəklər

**Azərbaycan Qarabağda konstitusion hüquqlarını tam bərpa etdikdən sonra cinayətkar rejimin keçmiş "rəhbər" şəxsləri ölkəmizin ərazisindən qaçmağa çalışırlar. Amma Azərbaycanın hər zaman bəyan etdiyi kimi, xalqımıza qarşı qətliamlar, soyqırımlar törətmiş, əli günahsız, dinc əhalinin qanına batmış hər bir erməni terrorçu cəzasını çəkəcək. Elə bu istiqamətdə işlər də davam edir.**



Separatçı rejimin keçmiş "prezident"ləri Araik Arutyunyanın, Arkadi Qukasyanın və Bako Saakyanın, "Daşnaksütyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyanın, sabiq "dövlət naziri" Ruben Vardanyanın törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə DTX tərəfindən Bakıya gətirilmələri göstərir ki, proses davamlı olacaq.

Məsələ ilə bağlı Milli Məclisin deputatı Naqif Həmzəyev "Azərbaycan"a bildirdi ki, qalib ölkə kimi Azərbaycan 44 günlük Vətən müharibəsi bitdikdən sonra Ermənistana sülh əlini uzatsa da, bu günə qədər Ermənistan tərəfinin səmimi olduğu görünmür. Onlar mütəmadi olaraq təxribatlar törədir və danışıqlar masasında oturaraq Azərbaycanın şərtlərini qəbul edib, amma sülh sazişini imzalamaqdan yayınırdılar: "Beləliklə, Azərbaycanın səbir kasası daşdı və bir günlük antiterror tədbirləri nəticəsində separatçıların və qanunsuz erməni silahlı birləşmələrinin ərazilərimizdən çıxarılmasına nail olundu. Azərbaycanın dinc sakinlərlə heç zaman işi olmayıb, humanitar hüquq qaydalarına tam olaraq əməl edib. Amma əli azərbaycanlıların qanına batmış, hərbi cinayətlər, soyqırımlar törətmiş və Azərbaycana qarşı separatçı fəaliyyətə rəhbərlik etmiş şəxslərin qanun qarşısında cavab verməsi labüd idi. Bunu da Azərbaycan dövləti etdi və hazırda cinayətkarlar bir-bir saxlanılaraq Bakıya gətirilir və onlar qanun qarşısında cavab verəcəklər".

N.Həmzəyev dedi ki, ilk növbədə istintaq aparılacaq, onların bildikləri məlumatlar öyrəniləcək. Onlar separatçı rejimə rəhbərlik etmiş şəxslərdir və hər biri qanlı cinayətlərdə ön sıralarda olublar. Bu baxımdan onların istintaqa cəlb edilməsi nəticəsində iştirak etdikləri cinayət əməlləri ilə bağlı yeni məqamlar ortaya çıxacaq. Bütün bunlar detallı şəkildə araşdırılacaq və istintaq nəticəsində digər cinayərkarlar da müəyyən olunarsa, onların da tapılaraq Azərbaycana gətirilməsi istiqamətində işlər görüləcək.

Bir çox cinayətkarın Qarabağdan qaçaraq Ermənistana sığındığını vurğulayan deputatın sözlərinə görə, onlar beynəlxalq axtarışa verilib və İnterpol vasitəsilə axtarışları davam edir. "Nə olursa-olsun Azərbaycan həmin cinayətkarların tapılıb qanun qarşısında cavab verməsinə nail olacaq. Düşünürəm ki, hazırda həmin şəxslərin Ermənistana verilməsi real deyil. Saxlanılanların hər biri bu proseslərdə yaxından iştirak edərək hərbi cinayətlər törədən şəxslərdir. Azərbaycan buna heç vaxt razılıq verməz. Bu günə qədər 4 minə yaxın azərbaycanlının taleyi bəlli deyil. Onların harada öldürüldüyü və yaxud başlarına hansı bəlalar gətirildiyini bilmək istəyirik. Eyni zamanda basdırılmış minaların xəritəsi bizim üçün önəmlidir".

Deputat hesab edir ki, yalnız istintaq başa çatdıqdan sonra bu məsələlərlə bağlı Azərbaycan dövləti lazımi və doğru qərarı verəcək. Ən əsası odur ki, Azərbaycanın qanunlarına və beynəlxalq hüquqa söykənərək istintaq və həbslər həyata keçirilib.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# XİN: "Katrin Kolonnanın Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə rədd edirik"

Oktyabrın 3-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonnanın Ermənistana səfəri çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonnanın Ermənistanda mətbuat konfransı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

Qeyd edilib ki, 30 ilə yaxın müddətdə azərbaycanlıların öz doğma torpaqlarından güc yolu ilə kütləvi şəkildə qovulmasına, onlara qarşı müharibə cinayətləri və kütləvi qırğınlar törədilməsinə heç zaman əhəmiyyət verməyən Fransanın indi heç bir əsas olmadan və BMT, Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatların səsləndirdiyi mövqeyə tamamilə zidd olaraq bölgədən könüllü əsasda getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Fransanın Ermənistanı hər vəchlə silahlandırmağa çalışması, onu yenidən təcavüzə və hərbi avantüraya cəlb etməsi qəbuledilməzdir. Fransanın bölgəmizə tarixən müdaxilə etmə cəhdləri kimi, bu səylərin də uğursuzluğa düçar olacağı Fransaya aydın olmalıdır.

Bu xüsusda Ermənistanın beynəlxalq hüququn bütün norma və prinsiplərini, eləcə də əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycanın ərazilərinin 20 faizə yaxın hissəsini işğal altında saxlamasına, 44 günlük Vətən müharibəsindən sonra ərazi bütövlüyü və suverenliyinə qarşı hərbi-siyasi təxribatlarını davam etdirməsinə, Azərbaycan tərəfindən həyata keçirilmiş antiterror tədbirlərinə qədər ərazilərimizdən hələ də öz silahlı qüvvələrini tam olaraq çıxarmamasına Fransanın göz yummasının sülh prosesinə mane və bölgədə əsl təhdid olduğuna diqqət çəkmək istərdik.

Vurğulanıb ki, Fransanın hər zaman Ermənistana dəstək verdiyinin, BMT Təhlükəsizlik Şurasının iclaslarının təşəbbüskarının Fransanın olduğunun bildirilməsi rəsmi Parisin son 30 ilə yaxın dönəmdə səsləndirdiyi bitərəf və neytral vasitəçi iddialarının tamamilə əsassız olduğunu növbəti dəfə sübut edib.

Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərinin dinc erməni sakinlərə qarşı heç bir təhdid təşkil etmədiyinin həm beynəlxalq təşkilatlar, həm də Ermənistanın baş naziri tərəfindən bəyan edilməsinə baxmayaraq, Fransa nazirinin Azərbaycanın öz suveren ərazilərində atdığı legitim addımı cinayət adlandırması saxtakarlıq olmaqla yanaşı, Parisin bölgədəki səriştəsiz siyasətini iflasa apardığını nümayiş etdirir.

# "Ermənistan XİN-in Azərbaycan tərəfindən erməni separatçıların həbsinə dair etiraz bəyanatını qətiyyətlə pisləyirik"

Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan tərəfindən erməni separatçıların həbs edilməsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını şərh edib.

AZƏRTAC xəbər verir ki, nazirliyin şərhində deyilir: "Ermənistan Xarici İşlər Nazirliyinin Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalı nəticəsində suveren ərazilərimizdə yaratdığı qondarma separatçı rejimin üzvlərinin Azərbaycan tərəfindən həbsinə etiraz olaraq 4 oktyabr tarixdə verdiyi bəyanatı qətiyyətlə pisləyirik.

Sözügedən bəyanat Ermənistanın Azərbaycana qarşı onilliklər ərzində yürütdüyü təcavüzkar siyasət və əməllərdən əl çəkmədiyini nümayiş etdirir. Bu bəyanat həmçinin həbsi həyata keçirilmiş şəxslər tərəfindən törədilmiş əməllərə bəraət qazandırılması cəhdidir.

Azərbaycana qarşı təcavüzdə, separatçılığın təşviq edilməsində, terror əməllərində, əsirlikdə olan hərbi qulluqçular və mülki şəxslərə qarşı sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlər törədilməsi və digər faktlar üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi çərçivəsində qeyd edilən şəxslərin həbsi ədalətin bərpasına xidmət edir və bu addımların legitimliyinin şübhə altına alınması qəbuledilməzdir.

Qeyd edilənlərlə yanaşı, tərk-silaha razı olan minlərlə Ermənistan hərbçilərinin və qanunsuz hərbi birləşmələrin Azərbaycan tərəfindən humanist addım olaraq sərbəst buraxıldığı və heç bir mane olmadan Ermənistana getdiyi Ermənistan XİN-ə yaxşı məlumdur və bu xüsusda Ermənistanın apardığı saxta kampaniyanın heç bir əsası yoxdur. Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana getmiş erməni sakinlərin öz yaşayış yerlərinə geri qayıtmasını təşviq etmək əvəzinə, onlar arasında təşviş yaratmaq və Azərbaycana qarşı irqi və etnik nifrət aşılamaq məqsədi daşıyan bu bəyanat Ermənistanın sülh səylərinə mane olan destruktiv fəaliyyətinin tərkib hissəsidir.

Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində düçar olduğu uğursuzluqlara rəğmən, yenə də əsassız olaraq və beynəlxalq hüququn norma və prinsiplərinə zidd şəkildə məhkəmə qarşısında iddialar irəli sürməkdə davam etməsi bu ölkənin Azərbaycanla sülh və normallaşma prosesində maraqlı olmadığını nümayiş etdirir. Ermənistanın bu kimi fəaliyyəti bölgədə sülhün, təhlükəsizliyin və ədalətin bərqərar olmasına əsas təhdid mənbəyidir".

# *Dövlət Xidməti:* "Ermənistan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasına mane olur"

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasını təmin etmək məqsədilə reintegration.gov.az portalı istifadəyə verilib. Portaldan Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə yanaşı, Ermənistan ərazisinə gedən erməni sakinlərin də istifadəsinə şərait yaradılıb.

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın bir sıra provayderləri dövlət qurumlarımıza məxsus olan bəzi domen adlarını Ermənistan ərazisindən insanların daxil olmasına mane olmaq üçün öz tərəfində blokda saxlayırlar.

Dövlət Xidməti tərəfindən aparılan müşahidələr nəticəsində bəlli olmuşdur ki, yeni istifadəyə verilmiş reintegration.gov.az domen adı da Ermənistan ərazisindən insanların daxil olmasına mane olmaq üçün Ermənistan Respublikasının provayderləri tərəfindən bağlanıb.

Ermənistan ərazisindən insanların portala daxil olmasını təmin etmək məqsədilə reintegration.gov.az domeninin real IP ünvanı Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən gizlədilməklə, bloklamadan yayındırılıb və Ermənistan ərazisindən insanların reintegration.gov.az saytına daxil olmasına girişlər bərpa olunub.

Son günlər dövlət qurumlarına məxsus olan saytlara, o cümlədən reintegration.gov.az portalına istifadəyə verildiyi gündən DDOS və digər kiberhücumlar aktiv şəkildə müşahidə olunur.

Görülmüş qabaqlayıcı tədbirlər nəticəsində "AzStateNet" şəbəkəsinə qoşulmuş bütün informasiya resurslarının etibarlı mühafizəsi və fasiləsiz fəaliyyəti təmin edilir.

# Rusiyanın Hayastandan qisası ağır olacaq

## Putinin həbsinə razılıq verdiyinə görə, Paşinyanı Moskva ciddi təhdid etdi

Ermənistanın baş naziri Nikol Paşinyanın hərəkətləri Moskvanı təəccübləndirməkdə və həm də qəzəbləndirməkdə davam edir. Hayastan parlamentinin Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya etməsi isə Paşinyan iqtidarının bütün istiqamətlərdə bundan sonra da Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atacağını göstərdi.

Daha çox narahatlıq doğuran məsələlərdən biri də anti-Rusiya əhvali-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsi və paralel olaraq Hayastanda Rusiyanın dayaqlarının laxladılmasıdır. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və N.Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, N.Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir.

Hayastan Roma Statutunu təsdiq etməklə Beynəlxalq Cinayət Məhkəməsinin Rusiya Prezidenti Vladimir Putin barəsində çıxardığı həbs orderinin icrasına dair öhdəliyə qoşulub. Bu isə o deməkdir ki, Vladimir Putin Hayastana gələcəyi təqdirdə həbs edilərək Haaqa Tribunalına verilməlidir.

Bütün bunların fonunda Hayastan parlamentinin qərarına Rusiyadan sərt reaksiyalar gəlməkdədir. Rusiyalı politoloq Maksim Şevçenko Hayastan parlamentinin Roma Statutunu ratifikasiya qərarına münasibət bildirərkən deyib ki, baş verənlər dünya münasibətləri sisteminin tamamilə dağılması deməkdir. Ekspert hesab edir ki, Ermənistan bu addımı atmaqla olan-qalan müstəqilliyini də itirir. Azərbaycanla müharibə artıq Hayastanın suveren dövlət kimi mövcudluğunu sual altına qoyub və İrəvan üçün hər şey adının Qərbi Azərbaycan və ya İrəvan xanlığı olaraq dəyişdirilməsi ilə bitə bilər: "Qəbul edilmiş qərar hansısa beynəlxalq hüquq sənədinin qəbulu deyil, bu, Avropa İttifaqının mütləq vassal andıdır". Politoloq Avropa İttifaqının Cənubi Qafqaza daxil olmağa çalışdığını söyləyib: "İndi Avropa İttifaqı Qafqaza girir. Doğrudanmı Türkiyə və Rusiyanın buna dözəcəyini düşünürlər? Siz ermənilər bu cür yanaşmalarla Azərbaycanın və ya Osmanlı İmperiyasının bir hissəsi olmaq məcburiyyətində qala bilərsiniz".

Rusiya Dövlət Dumasının deputatı Mixail Şeremet isə deyib ki, Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutunun ratifikasiyası Hayastanda geri dönməz zəncirvari reaksiyaya səbəb olacaq. İrəvanda həyat onsuz da qeyri-sabitdir və bu, son nəticədə vətəndaş cəmiyyəti daxilində parçalanmaya və qarşıdurmaya səbəb olacaq.

Ermənistan parlamentinin "Hayastan" fraksiyasının deputatı Artur Xaçatryan deyib ki, rəsmi İrəvanın Roma Statutunu ratifikasiya etməsi Rusiyaya qarşı düşmən addımıdır: "Bu, düşməncəsinə hərəkətdir. Kiyevə (Paşinyanın həyat yoldaşı Anna Hakopyanın Ukraynaya getməsini nəzərdə tutur-red.) getmək, müxtəlif siyasi bəyanatlar vermək də düşmənçilikdir. Bunun nəticələri olacaq. Artıq sərhəddə yük maşınlarının tranzitində problemlər olması ilə bağlı şikayətlər var". Xaçatryan vurğulayıb ki, Roma Statutunun ratifikasiyası Hayastan Konstitusiyasına ziddir.

Bu arada erməni analitik Mofses Rustamyan da məsələyə münasibət bildirib. Onun sözlərinə görə, Paşinyan hakimiyyəti Rusiyaya qarşı atdığı son addımlarla Hayastanı Qərbə doğru çevirdiklərini göstərdi. Hayastan vasitəsilə regiona nüfuz edən Qərb Rusiyanı sıxışdırıb çıxarmaq kimi geosiyasi məqsədlərini həyata keçirir: "Bəs İrəvanın xarici siyasətini Moskvadan Brüsselə dəyişməsində günahkar kimdir? 44 günlük müharibədə və ondan sonrakı dövrdə Hayastana xəyanət edən yalnız Rusiyanın özüdür. Kreml Azərbaycan və Türkiyəni razı salmaq üçün regionda yeganə müttəfiqinin maraqlarını heçə saydı. Doğrudanmı Moskva bu qədər sadəlövh idi ki, İrəvanda heç bir əks tədbir görülməyəcəyini düşünürdü? Təbii ki, Rusiyanın hələ də Hayastana qarşı çoxlu təzyiq vasitələri var. Unutmayaq ki, ölkəmiz, sözün əsl mənasında, Rusiya hərbçiləri və FTX-si ilə doludur. Yaxın günlərdə İrəvana qarşı bütün bu təzyiq vasitələrindən istifadə olunacaq".

Beləliklə, Hayastanda hazırda baş verənlər onu sürətlə hərtərəfli iflasa aparır. Çünki Hayastan xarici himayədarlarsız yaşaya bilmək iqtidarında olan ölkə deyil.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ASALA yəhudilərə qarşı terrora başladı

## Quldur təşkilatı İrəvanda sinaqoqa hücumun digər ölkələrdə də davam edəcəyini bildirdi





"Ermənistanın Azadlığı uğrunda Gizli erməni Ordusu" (ASALA) terror təşkilatı İrəvanda yəhudi sinaqoquna hücuma görə məsuliyyəti öz üzərinə götürüb. Sinaqoqa edilən vəhşi hücumu ASALA-nın gənclər qolu həyata keçirib.

Vəhşiləşmiş vandallar sinaqoqun binasına maye boya atıb, pəncərələri sındırıblar. ASALA-nın bununla bağlı yaydığı bəyanatda hücum "İrəvandakı Dünya Yəhudi Mərkəzinə qarşı uğurlu hədə-qorxu əməliyyatı" adlandırılır.

Terror təşkilatının bəyanatında bildirilir: "Yəhudilər Ermənistan dövlətinin və erməni xalqının qatı düşmənləridir. Bu, xəbərdarlıqdır: oktyabrın 3-də İrəvanda uğurlu əməliyyatımız yalnız başlanğıcdır. ABŞ, Avropa və digər ölkələrdə sinaqoqları yandırmağa davam edəcəyik. Hər bir ravvin bizim diqqətimizin mərkəzində olacaq".

ASALA İsrail hökumətinin Azərbaycana dəstəyini davam etdirəcəyi təqdirdə Avropa, Amerika, Kanada və Gürcüstandakı yəhudiləri müharibə ilə hədələyib.





Erməni millətçiləri yəhudilərə və yəhudi dünyasına qarşı bu cür əməlləri davam etdirəcəklərini fəxrlə söyləyiblər: "Heç bir israilli yəhudi bu ölkələrə gələrkən özünü təhlükəsiz hiss etməyəcək".

Bu, erməni cəmiyyətində antisemitizmin daha bir bariz nümunəsidir və eyni zamanda fərqli etnik kimliyin daşıyıcılarına qarşı dözümsüzlüyünü nümayiş etdirir.

Xatırladaq ki, bir müddət əvvəl İrəvanın mərkəzində naməlum Holokost qurbanlarının xatirəsinə həsr olunmuş abidə təhqir olunmuşdu. Həmin vaxt "Azərbaycan-İsrail" beynəlxalq assosiasiyasının baş direktoru Lev Spivak demişdi ki, Ermənistanda antisemitizm yüksək səviyyəyə çatıb: "Yəhudi təşkilatı AIPAC-ın məlumatına görə, antisemitizm hər yerdə, bir qayda olaraq, təxminən 0,5 faizdir, Ermənistanda isə bu rəqəm 60 faizdən yuxarıdır və bu, rekord göstəricidir".

1970-ci illərin ortalarında daşnaklar terrorçu təşkilatlar yaradıblar və onların arasında ASALA qanlı əməlləri ilə diqqəti xüsusi cəlb edir. Təşkilatın qurucuları Akop Akopyan və Akop Tarakçıyandır. Təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir.

Terror təşkilatının əsas məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Qarabağ bölgələrinin də daxil olduğu bir ərazidə "Böyük Ermənistan" dövləti qurmaqdır. ASALA indiyədək əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirib.

Bu terror təşkilatı fəaliyyətini Fransada daha çox göstərməkdədir. Buna səbəb isə bu ölkədə erməni terrorçuların sərbəst hərəkətinə icazə verilməsidir. Bundan başqa, erməni ekstremistlər ABŞ, Yunanıstan, Cənubi Kipr, İsveçrə və Kanadada fəaliyyətlərini davam etdirirlər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Fransa Ermənistanı məhvə sürükləyir

Vasitəçi kimi onilliklər boyu keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində əlini ağdan qaraya vurmayan, əksinə, vəziyyətin ermənilərin xeyrinə sonsuzadək sürməsində maraqlı olan müstəmləkəçi Fransanın üç ildir ki, yerinə qor dolub, yuxuları ərşə çəkilib.

Parisin hikkəsindən cilov gəmirən başda Makron olmaqla, Ketrin Kolonna, Sebastyan Lekornyu kimi iri ranqlı dövlət adamları erməni bacılarının yalançı hay-qışqırıqlarına qoşulub elə zar-zar ağlayırlar ki, adam lap istəyir onların gözlərinin yaşını qurutmaq üçün Bakıdan Fransaya yardım, dəstək olaraq iki "TIR" kağız dəsmal yola sala...

Bu qədər... Başqa heç nə... Çünki Azərbaycan milli maraqlarını, dövlətçiliyini təhdid edən heç bir qüvvənin göz yaşına baxmadığını elə son olaraq bu il sentyabrın 19-20-də 23 saatlıq ildırım sürətli antiterror tədbirləri zamanı qətiyyətlə sübut edib.

### Milli maraqlarımız beynəlxalq qanunlar çərçivəsində qətiyyətlə həll olunub

2020-ci ildə torpaqlarını işğaldan azad edən Azərbaycan 2023-cü ildə suverenliyini tam təmin edərək, Fransanın da xüsusi canfəşanlığı ilə 30 ildir ki, danışıqlar yolu ilə dalana dirənən Qarabağ məsələsini birdəfəlik yoluna qoydu.

Hazırda Azərbaycan mərkəzi hakimiyyəti illərdir boz zonaya çevrilən bu bölgədə dövlət idarəçiliyinə başlayıb, Xankəndidə yenidən normal həyat şərtlərinə qayıdılıb. Azərbaycan mərkəzi hakimiyyəti Qarabağın erməni sakinlərinin reinteqrasiyası ilə bağlı əməli addımlar atır. Reinteqrasiya respublikamızın ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir.

Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir. Konstitusiyamızın şərtləri ilə üçrəngli bayrağımızın altında yaşamaq istəyən Qarabağın erməni sakinləri bir-bir ölkəmizin vətəndaşlığını qəbul etmək üçün müraciət edirlər. Ölkəmizdə qalmaq istəməyən ermənilər könüllü şəkildə ərazilərimizi tərk ediblər. Azərbaycan xalqına qarşı hərbi cinayətlər törətmiş separatçılar isə həbs edilərək qanun qarşısında cavab vermələri üçün paytaxta gətirilirlər.

Azərbaycan BMT TŞ-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsini də, suverenliyinin tam təminini də dünyanın gözü qarşısında öz gücünə həll edib. Nə 44 günlük Vətən müharibəsində, nə də 23 saatlıq antiterror tədbirləri zamanı mülki obyektləri və əhalini hədəf seçib.

Qısa cümlələrlə ifadə etdiyimiz bütün bu mühüm məsələlər göstərir ki, nəhayət, haqq da, ədalət də, hüquq da öz yerini tapıb.

### Fransa müstəmləkəçilik ənənəsindən əl çəkmir

Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun milli maraqlarını təmin etməsi reallığı fonunda isə Fransanın atılıb-düşməsi, ard-arda ölkəmizə qarşı hədyanlar səsləndirməsi də, sözün düzü, təəccüblü görünmür. Tarixi soyqırımları üzərində qurulan, əli bir milyon yarım əlcəzairlinin qanına batan müstəmləkəçi Fransa özünü beynəlxalq aləmə "demokratik" ölkə kimi sırımağa çalışsa da, əməlləri ilə hələ də müstəmləkəçilik ideyalarına sadiq qaldığını sübut edir. Əslində, Parisin bu zərərli yanaşmasının, Afrika ölkələrinə münasibəti, təcavüzkar Ermənistanla bağlı mövqeyi səbəbindən, Makron hakimiyyəti zamanı daha qabarıq ortaya çıxdığı gün kimi ortadadır.



**Fransanın Əlcəzairdə törətdiyi soyqırımları**

Ümumiyyətlə, Azərbaycanın Qarabağ bölgəsində keçirdiyi lokal antiterror tədbirlərindən sonra Makronun başçılıq etdiyi Fransa hökuməti kiçik bacısı Ermənistana xüsusilə hərbi yardım etmək üçün fəallıq göstərir.

Fransanın müdafiə naziri Sebastyan Lekornyunun bununla bağlı bir fikrinə diqqət edək: "Fransa Ermənistanın müdafiə sahəsində tələbatlarını araşdırır. Prezident (Makron - red.) şəxsən prosesləri izləyir, çünki bu məsələ Fransa üçün çox vacibdir. O, (Makron - red) bildirib ki, bizim üçün əsas məqsəd Ermənistanın ərazi bütövlüyü, suverenliyi və ölkə əhalisinin müdafiəsidir".

Bu il oktyabrın 3-də Ermənistana səfər edən Fransanın xarici işlər naziri Katrin Kolonna X platformasındakı hesabında Ağrı dağının şəklini paylaşaraq təxribatçılıq nümayiş etdirib. Sözügedən səfər ərəfəsində K.Kolonna Ermənistanla hərbi əməkdaşlığı gücləndirəcəklərini, Ermənistanla hərbi-texniki sahədə saziş imzalanacağını, Yerevana hərbi attaşe təyin olunacağını, Sünikdə konsulluğun açılacağını bildirib.

Bu, Fransa XİN başçısının ermənipərəstliyinin, Azərbaycana qarşı qərəzinin ilk nümunəsi də deyil. Hələ bu il aprelin 28-də Kolonna Ermənistanda səfərdə olarkən mətbuat konfransında Azərbaycana qarşı əsassız iddialar səsləndirmiş və Fransanın ölkəmizlə bağlı riyakar siyasətini açıq şəkildə göstərmişdi.

Göründüyü kimi, Ermənistan Rusiyanın forpostundan çıxaraq Fransanın forpostuna çevrilib.

### Paris qaşınmayan yerdən qan çıxartmağa çalışır

Cənubi Qafqazda münaqişənin bitməsini qətiyyən istəməyən Fransa burada əbədi sürəcək müharibə istəyir. Ermənistanı silalandıraraq, hərbi yardımlar edərək İrəvanı Azərbaycana qarşı savaşa qızışdıran Paris hazırda, sözün əsl mənasında qaşınmayan yerdən qan çıxartmaqla məşğuldur.

Hansı ki Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsinin bölgədə dayanıqlı sülhü təmin edəcəyi şübhəsizdir. 44 günlük müharibədən sonra, eləcə də hazırda Bakı iki ölkə arasında normallaşmağa nail olunması, sülh müqaviləsinin imzalanması istiqamətində əməli fəaliyyət göstərir, bütün üçtərəfli danışıqlarda aktiv iştirak edir. Amma faktiki olaraq Fransanın forpost ölkəsinə çevrilmiş və müstəqil qərar qəbul etmək iqtidarında olmayan Ermənistan sülh müqaviləsinin imzalanması üçün siyasi iradə ortaya qoya bilmir. Əvəzində müstəmləkəçi Fransanın qızışdırması ilə özünü bir ölkə olaraq fəlakətə sürükləyəcək müharibə eyforiyasına qapılır.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsində vasitəçi olaraq 25 il müddətində ərazilərimizin Ermənistanın işğalına məruz qalmasına, bir milyondan çox vətəndaşımızın dədə-baba yurdundan didərgin salınmasına, qatil ermənilər tərəfindən insanlarımızın soyqırımlarla üzləşməsinə, işğal müddətində torpaqlarımızın vandallığa məruz qalaraq mina tarlasına çevrilməsinə heç bir münasibət bildirməyən, Ermənistana qarşı hansısa təzyiqlərə, sanksiyalara çağırış etməyən, bəyanatlar verməyən riyakar Fransa indi vicdansızlıqla ermənipərəstlik göstərir.

Ketrin Kolonna ölkəmizi öz xoşu ilə deyə-gülə tərk edən bir ovuc erməninin görüşünə qaçır, onların olmayan problemlərindən dəm vurur, çərənləyir...

Hansı ki Azərbaycanda bu ermənilərə heç gözün üstündə qaşın var deyən də olmadı.

Əksinə, indi onlar özləri də peşman-peşman seyr edirlər ki, mərkəzi hakimiyyət Azərbaycan vətəndaşlığını qəbul edən Qarabağın erməni sakinlərinə necə layiqli və təhlükəsiz həyat şəraiti qurur.

### Fransa insanlığı təhdid edən əməllərindən çəkinməlidir

Təəssüf ki, Azərbaycanı tərk edib Ermənistana üz tutan ermənilərin həm İrəvan, həm də Fransa kimi qərəzli Qərb ölkələri üçün maşaya çevriləcəkləri, yenə də milli zəmində qızışdırılacaqları, səfalətə, müharibəyə, ölmə sürüklənəcəkləri də şübhə doğurmur. Buna görə də necə ki gec deyil, həmin ermənilər başlarının çarəsini özləri qılmalıdır, çünki onlara nə təcavüzkar Ermənistandan, nə də müstəmləkəçi Fransadan bir hay olacaq.

Bütün bu insanlığı təhdid edən davranışlarına görə dünya ölkələri, beynəlxalq təşkilatlar Fransaya dur deməli, Parisi bu çirkin davranış və əməllərdən çəkindirməlidirlər. Yoxsa nəticəsi Ermənistana baha başa gələcək.

Çünki Cənubi Qafqazda sabitlik, əmin-amanlıq və dayanıqlı sülhün tərəfdarı olan və bu istiqamətdə əməli addımlar atan Azərbaycan milli maraqlarını təhdid edən bütün güc və qüvvələri darmadağın etmək qüdrətində olduğunu dəfələrlə sübut edib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

◆ 5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür

**Şəxsiyyət - cəmiyyət münasibətləri bütün zamanların müzakirə mövzusu olmuşdur. Cəmiyyət şəxsiyyəti formalaşdırır, yoxsa şəxsiyyət cəmiyyətə dəyişdirici təsir göstərir? Əslində, hər iki tezisdə ciddi əsaslar vardır. Cəmiyyət öz-özünü tənzimləyən sistem kimi şəxsiyyətin formalaşmasına töhfə verməklə yanaşı, özü də tarixi şəxsiyyətlərin inqilabi - dəyişdirici təsirinə məruz qalır.**





# Baş müəllim

Şəxsiyyətin formalaşmasında, onun sosiallaşmasında irsi - genetik amillərdən heç də az təsir imkanına malik olmayan sosiogen amillər, ətraf mühit faktoru mübahisəsiz həqiqətdir.

Ətraf aləmin dəyərləri, ailə tərbiyəsi, məktəb-müəllim tərbiyəsi, təhsil amili, ictimai-siyasi təlimlər, cəmiyyət tərbiyəsi və cəmiyyət əxlaqı, cəmiyyət tövsiyəsi və qınağı, siyasi mühit və s. bütün bu institutlar şəxsiyyətin formalaşmasına təsir edən əsas sosial agentlərdir. Bu sosiallaşma institutları içərisində məktəb amili, özəlliklə də müəllim faktoru bir çox hallarda şəxsiyyətin formalaşmasında müəyyənləşdirici amil kimi çıxış edir. Yunan filosofu Aristotel həmişə təhsilin zəruriliyindən və müəllimlərin təhsildə ən vacib rola və təsirə sahib olduğunu müdafiə edirdi. "Yaxşı müəllimlər bizim biz olmağımızda, bizi formalaşdırmaqda mühüm rol oynayırlar və heç kimin edə bilmədiyi bir şeyi edirlər: dünyagörüşümüzü dəyişdirmək və bizi olduğumuzdan daha yaxşı yerlərə gətirmək". Makedoniyalı İsgəndər isə öz müəllimi Aristotel haqqında deyirdi: "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı".

Müqəddəs Qurani-Kərim biliyə yiyələnməyin ilk yolunu oxuyub yazmaqda, öyrənməkdə görür. Hədislərin birində Məhəmməd Peyğəmbər alimləri yer üzünün çırağı, nuru adlandırır, biliyi bilməyənlər arasında yaymağı ən böyük sədəqə hesab edir, bilikli adamın üzünə baxmağı, onunla oturub-durmağı ibadət sayır, bilik öyrədən və bilik öyrənən arasında xoş münasibəti vacib hesab edirdi: "Kimdən bilik öyrənirsinizsə, ona hörmət edin, onunla mehriban olun". Görkəmli alim Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində müəllim peşəsinə yüksək qiymət verərək yazmışdır: "Varlıqları ən aşağı dərəcədən kainatın ən şərəfli mərtəbəsinə qaldıran sənətdən daha şərəflisi nə ola bilər?" Xalq arasında isə belə bir fikir də mövcuddur ki, müəllim dəyişəndə cəmiyyət də dəyişir. Bu, onunla bağlıdır ki, insanların fikir və düşüncələrinin, həyata baxışlarının formalaşmasında, dəyişməsində müəllim müstəsna rol oynamaqla bütün cəmiyyətin şüurunda dəyişiklik yaratmaq gücünə malikdir. Dahi Mustafa Kamal Atatürkün dediyi kimi, "Əsərinin üzərində imzası olmayan yeganə sənətkar müəllimdir". Atatürk öz fikir atası, sosioloq Ziya Göyalpı xatırlayaraq yazırdı: "…Əgər mənim ətimin və sümüyümün atası Əli Rza əfəndidirsə, fikrimin atası Ziya Göyalpdır".

Bəli, hər birimizin taleyində əhəmiyyətli yeri olan, bilik xəzinəsini daim insanların üzünə açan müəllimlərimizə borcluyuq. Bu məqamda islam dünyasının dahi şəxsiyyəti Həzrəti Əlinin bir kəlamı yada düşür: "Mənə bir hərf öyrədənin köləsi olaram". Doğrudan da, müəllim öz biliyi, yüksək mənəvi keyfiyyətləri və əməlləri ilə cəmiyyətə layiqli töhfələr verir.

Hələ bizim eradan öncə seçilmişlər öz övladlarını xüsusi müəllimlərə həvalə edər, onları cəmiyyət və dövlət idarəetməsinə hazırlayardılar. "Pedaqogika" sözü iki yunan sözündən ("payda" və "qoqos") əmələ gəlib, hərfi mənası "uşaq ötürən" deməkdir. O, tərbiyə və təlim haqqında elmdir. Uzun illər məktəblər bu pedaqoqların adı ilə bağlı olmuş, Platon məktəbi, Aristotel məktəbi, Sokrat məktəbi və s. adlanmışdır.

Müasir dövrdə şəxsiyyətlərin formalaşmasında örnək şəxslərin, böyük uğur hekayəsi yazan şəxslərin xidməti danılmazdır. Elə tarixi şəxsiyyətlər vardır ki, öz həyatı, keçdiyi yol, yazdığı tarixlə özündən sonra məktəb qoyub getmişlər. Belə tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının böyük tarixi şəxsiyyəti, planetar siyasi xadim, görkəmli strateq Heydər Əliyevdir.

Heydər Əliyev siyasi irsini araşdırdıqca onun milli düşüncəmizin ən dərin qatlarına nüfuz edən nəhəng siyasətçi kimi obrazını görməyə bilmirsən. Müəllimlik haqqında ən yüksək fikirləri bildirən Ulu Öndərin Azərbaycan Müəllimlərinin I Qurultayındakı çıxışı maraq doğurur: "Doğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz… Mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim. …Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxtdan dərs vermək təcrübəm olubdur".

Bəli, Heydər Əliyevi başqalarından fərqləndirən fərdi xüsusiyyətləri ilə bərabər, həm də keçmiş olduğu böyük həyat təcrübəsi idi. Müəllimlik peşəsini də o təcrübədə yaşamış və sevmişdir.

Heydər Əliyev fenomeninin örnək alınası ən vacib tərəflərindən biri də gənc yaşlarından vəzifə pillərində sürətlə irəlilədikcə öz həmkarlarına - müəllimlərinə münasibətdə heç vaxt təkəbbürə yol verməyib həmişə öz təvazökarlığını saxlamasıdır. Bu onun ən ali yüksək insani keyfiyyəti idi. Dünyanın aparıcı siyasi liderlərindən olan Heydər Əliyev öz müəllimlərini heç vaxt unutmurdu. Təsadüfi deyil ki, Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosundan istefaya məcbur edildikdən sonra üz tutduğu doğma vətəni Naxçıvanda ilk olaraq müəllimlərini axtarmışdır.

Məşhur tarixçi alim Əli Əliyev böyük dövlət adamı Heydər Əliyevlə görüşünü belə xatırlayır: "Vaxtilə dərs dediyim Heydər Əlirza oğlu ilə Naxçıvanda mehribancasına görüşdük, söhbətimiz uzun çəkdi, çoxsahəli oldu, ötən-keçənləri xatırladıq... Söhbətimizin əsas mövzusu, əlbəttə, indiki halda düşdüyümüz ağır vəziyyət və ondan çıxış yollarını tapmaq idi. Danışdıqca qəhərlənirdim".

Bu insanlardan biri də Heydər Əliyevin Naxçıvanda orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi olan, ədəbiyyatşünas alim, görkəmli maarif xadimi, "İstiqlal" ordenli, respublikanın Əməkdar müəllimi Lətif Hüseynzadə idi. 26 oktyabr 1996-cı ildə Naxçıvan şəhərində görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin təntənəli açılış mərasimində əlində əsa olan bir qoca böyük izdihamı yararaq məqbərənin qarşısına yaxınlaşırdı. Elə bu zaman Prezident Heydər Əliyev pillələri enib onunla səmimi görüşdü, hal-əhval tutub stul gətirdərək onu əyləşdirdi, sonra tarixi çıxışını davam etdirdi. Bəs bu hörmət sahibi olan şəxs kim idi? Heydər Əliyevin müəllimi Lətif Hüseynzadə.

Dahi siyasətçinin müəllimi ilə daha bir görüşü 13 oktyabr 1999-cu ildə Naxçıvanda "Kazım Qarabəkir paşa məscidi"nin açılış mərasimində olmuşdur. Mərasimdə geniş nitq söyləyən Prezident Heydər Əliyev birdən dayanır, üzünü mərasim iştirakçılarına tutaraq deyir: "Burada mənim gənc vaxtımda, 13-16 yaşlarımda, orta məktəbi bitirdiyim illərdə mənə dərs verən, ana dili, türk dili, Azərbaycan dili dərsi verən müəllimim oturubdur - Lətif Hüseynzadə. Dünən təntənəli mərasimdə öz müəllimlərimi yada salırdım. 60 il, bəlkə də 65 il bundan öncə mənə dərs deyən müəllimlərimdən birinci - əziz müəllimim Lətif Hüseynzadənin adını çəkdim. O, dünən mərasimdə yox idi. Amma onu yad etdiyimi televiziya ilə eşidib bu gün buraya gəlmişdir. Mən burada onunla görüşdüm. Çox məmnunam, çox sevinirəm ki, indiyə qədər yaşayır, öz fəaliyyətini davam etdirir və böyük işlər görür".

Daha sonra Heydər Əliyev öz nitqində belə deyir: "Xatirimdədir, 1982-ci ildə - o vaxt Azərbaycanın başçısı idim, - məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və baş nazirin birinci müavini vəzifəsinə təyin etdilər. Mən beş il orada çalışandan sonra məcburi istefaya getdim. Moskvada üç il ağır şəraitdə yaşayandan sonra Bakıya, oradan da Naxçıvana gəldim. Burada bacım yaşayırdı, onun kiçik evində yerləşdim. Məni sayan adamlar gəlib görüşür, kiçik bir həyətdə məni ziyarət edirdilər. Mənim müəllimim Lətif Hüseynzadə də gəldi. O qədər sevindim ki! Çünki mən ondan 39-cu ildə ayrılmışdım, bu isə 90-cı il idi. Oturduq çox söhbət etdik. Mən onun o vaxt dediyi sözləri sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış ki, erməni düşmənlərimizin burada qarşısını al. Naxçıvana təcavüzə icazə vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər, əgər türk ordusu buraya gəlməsəydi, Kazım Qarabəkir paşanın ordusu Naxçıvana gəlməsəydi, hamımızı qıracaqdılar. Bu mənim gözümün qabağında olan hadisədir. Yəni 1990-cı ildə Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi olaraq mənə bir ağsaqqal, müəllim kimi tövsiyələrini verdi".

Heydər Əliyev təkcə öz müəlliminə deyil, bütövlükdə müəllimlik peşəsinə böyük dəyər verərək söyləyirdi: "Mən dünyada müəllimdən yüksək ad tanımıram!" Bu, bir təvazökarlıq bir müdriklik nümunəsidir. Heydər Əliyev bütün insanlara öz nümunəsində müəllimə hörmət etməyi hansı vəzifə pilləsində olursansa ol, sənin vəzifəndir, şəxsi örnəyini göstərir. Bu, Heydər Əliyevin şəxsi keyfiyyətlərinin ən səciyyəvi xüsusiyyəti, pafosdan uzaq şəxsi nümunə idi.

Müasir Təhsil Kompleksinin müəllimi Əhmədova Sədaqət Balağa qızı bu mənada öz fikirlərini belə deyir: "2001-ci il sentyabr ayının 1-də - kompleksin açılışı günü, mənim həyatımda unudulmayacaq hadisə baş verdi. Birdən sinfin qapısı açıldı, dahi Heydər Əliyev içəri girdi. Bu əlçatmaz xoşbəxtlikdən əvvəl özümü itirdim, sanki dondum. Qarşımda bir baxışı ilə dünyanın ən böyük siyasətçilərini susduran, bir kəlmə sözü ilə hər kəsi özünə ram etməyi bacaran Heydər Əliyev durmuşdu. Baxışlarımız sataşdı. Mən bu dahinin gözlərinə baxanda anladım ki, qarşımda çox doğma, əziz, mehriban, qayğıkeş, əvəzsiz bir insan dayanıb. Bu məni ürəkləndirdi, mənə güc verdi. Dərsi birlikdə davam etdirdik. Sözlə tərifini deyə bilmədiyim şeir məclisi yarandı. Həm Heydər Əliyev, həm şagirdlər, həm də mən Nizamidən, Füzulidən S.Vurğundan, Sabirdən şeirlər söylədik, Ümummilli Liderin nəsihətlərini dinlədik, xeyir-duasını aldıq".

Hər bir sözü, baxışı, hərəkəti bir mesaj olan, öz ömrü, işi ilə milyonlar üçün həyat məktəbi olan bu dahi insan bu gəlişi, sadə bir müəllimlə belə mehriban, səmimi görüşü ilə hamıya - bütün insanlara çatdırdı ki, müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Müstəqil Azərbaycanda müəllim hörmətli insan kimi qəbul edilməlidir. Hələ dünyada müəllimə belə yüksək, şərəfli qiymət verən bir dahi, bir lider, bir insan olmayıb!

Prezident İlham Əliyevin atası Heydər Əliyevin şəxsi nümunəsi barəsində söylədikləri fikir çox düşündürücüdür: "Atam çox zəhimli, tələbkar, ciddi bir adam idi. Belə olması ilə yanaşı, uşaq yaşlarımdan onun evdə ailə üzvləri ilə qayğıkeş münasibətləri, anama və bizə həssaslığı mənim diqqətimi çəkirdi. O, bizə ailədə sağlam mühitin zəruriliyi haqda nəsihətlər vermirdi, bunu əyani göstərib öyrədirdi. Mən həyatda ən çox ondan, onun şəxsi nümunədə göstərdiklərini öyrənmişəm".

Heydər Əliyev öz vətəndaşını elmli, vətənini sevən, tarixinə hörmət bəsləyən bir şəxsiyyət kimi görmək istəyirdi. Dahi siyasətçi, böyük dövlət adamı Heydər Əliyev belə deyirdi: "Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır".

Belə mənəviyyatlı vətəndaşın yetişməsi Azərbaycanın aydın gələcəyinin carçısı ola bilərdi. Uğurlu siyasi varis İlham Əliyev Heydər Əliyevin bu mirasına sahib çıxdı və bu mənəviyyat konsepsiyasını inkişaf etdirməklə vətənpərvər bir gənc nəsil yetişdirdi. Heydər Əliyev bütün sahələrdə stateji ümummilli dəyərləri önə çəkdiyi kimi, elm və təhsil haqqında da strateji düşünürdü və deyirdi: "Təhsil millətin gələcəyidir!"

Müdrik siyasi xadim insan həyatının bütün mərhələlərində davamlı olaraq elm və təhsil öyrənməsinin vacibliyini vurğulayaraq belə söyləyirdi: "İnsan təhsilinin əsasını orta məktəbdə alır… Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, …cəmiyyətimizin şüurlu üzvü olacaqdır".

Bu mənada ötən əsrin 70-ci illərində Bakıdakı 6 saylı orta məktəbdə hazırkı dövlət başçısı İlham Əliyevə dərs demiş Emma Kazımovanın xatirəsini yada salmaq yerinə düşər: "Bizə qalsaydı, hər dəfə İlhama əla qiymətlər yazardıq. Çünki doğrudan əla oxuyurdu. Mən ona 4 yaza bilmirdim, oxuyurdu axı. Fizika müəllimi Nikolay Şişkin vardı. Deyirdi şagird kitabı öyrənib gəlməsin, mənim yanımda nasaz ütünü, zəngi açıb düzəltsin, qiymət verim. İlhama da 4 yazdı, dedi o, fizikanı 5-ə bilmir. Attestata da qiymət belə getdi. Ona görə də İlham qızıl medal ala bilmədi. O vaxt Heydər Əliyev bu məsələyə qarşı çıxmadı. Heydər Əliyev deyib ki, düzəliş lazım deyil, bu qiyməti alıb. İndi valideynlər tamam başqa cür hərəkət edir, müəllim tuturlar. Amma o vaxt valideynlər, o cümlədən İlham Əliyevin valideynləri - Heydər Əliyev və Zərifə xanım deyirdi hamı necə, bizim uşaq da elə. Bütün mənada baxışları belə idi".

Heydər Əliyev təhsil pillələrinin hər biri haqqında xüsusi fikirlərə malik bir insan idi. Onun hələ Sovetlər Birliyi dönəmində ümumi təhsil və peşə təhsili barəsində səsləndirdiyi akademik fikirlər sadəcə maraq doğurur. Heydər Əliyevin bu fikirlərini öyrəndikcə onun haqqında deyilmiş "Zamana sığmayan lider" epitetinin mübaliğə olmadığı göz önündə canlanır.

Heydər Əliyev: "Cəmiyyətin təkmilləşdirilməsi indi xalqın gələcəyinin başlıca məzmununu təşkil edir, sosial gerçəkliyin bütün cəhətləri indi əmələ gələn dərin dəyişikliklərdə öz təcəssümünü tapır, ümumtəhsil və peşə hazırlığına, mənəvi keyfiyyətlərinə və mənəvi inkişafına yeni tələblər verir. İnsanın formalaşma prosesi uşaqlıq illərindən ailədən, məktəbdən başlanır. Bax buna görə də gənclərin düzgün tərbiyə olunması ideoloji fəaliyyətin təkmilləşdirilməsinin vacib məsələlərinin müzakirə edərkən ümumtəhsil və peşə məktəblərində islahatın ən mühüm vəzifələrindən biri kimi irəli sürülmüşdür. Bizim nəzərdə tutduğumuz islahatların başlıca məqsədi bütün təlim və tərbiyə işini, gənc nəslin cəmiyyətə və əməyə hazırlaşdırılmasını kökündən yaxşılaşdırmaqdır... İslahatın həyat keçirilməsində müəllim əsas simadır. Dövlət onun fədakar əməyini yüksək qiymətləndirmişdir. İslahat müəllimin nüfuzunu yenidən zirvəyə qaldırmalıdır". (Heydər Əliyevin XI çağırış SSRİ Ali Sovetinin sessiyasındakı çıxışından).

Azərbaycan xalqının mənəvi dəyərlərinin qorunmasında məhz Heydər Əliyev tərəfindən yaradılmış bu fərdi və milli-mənəvi inkişaf konsepsiyasının kökü dərinlərə gedir. Burada bizim tarixi ənənələrimiz, tarixi şüurumuz və dini dəyərlərimiz bütövlükdə vahid bir nəzəriyyə kimi özünü göstərir. İslam peyğəmbərinin elm haqqında söylədiyi fikirlərə diqqət edək. Məhəmməd peyğəmbər: "Elm çöldə dostunuz, tənhalıqda munisiniz, köməksizlikdə yoldaşınız, xoşbəxtliyə tərəf yol göstərəniniz, dostlar arasında zinətiniz, düşmənlər arasında silahınızdır".

Heydər Əliyevin irəli sürdüyü fikirlər də öz kökünü bu cür müqəddəs dəyərlərdən alırdı. Ulu Öndərin təhsil sahəsində apardığı islahatlar da mahiyyət etibarı ilə həm peşəkar insan ehtiyatlarının formalaşmasına, həm də sağlam vətənpərvər cəmiyyətə yararlı insan yetişdirmək amalına xidmət edirdi. Heydər Əliyev təhsil və elmi üzvü vəhdətdə götürürdü. Heydər Əliyevin dil siyasətinin arxasında da məhz yüksək mənəvi keyfiyyətlərə malik insan yetişdirmək düsturu dayanırdı.

Məşhur etnoqraf Lev Qumilyov etnosun qorunmasında dil ünsürünün ən vacib amil olduğunu qeyd edirdi. Bu kontekstdə Heydər Əliyevin Azərbaycan dilinin yaşadılması və inkişafı uğrunda apardığı mübarizənin mahiyyətini dərk etmək o qədər də çətin deyil. Dil mədəniyyətinə münasibət barədə Ulu Öndər deyir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur". Yaxud Heydər Əliyevdən başqa sitat: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik".

Heydər Əliyevin siyasi müdrikliyi ilə hələ sovet dövründə Azərbaycan dilinin dövlət dili olması Konstitusiyada öz əksini tapmışdı. O zaman müzakirələrdə Azərbaycan dilinin Konstitusiya layihəsində əksini tapması ilə yanaşı, bu layihənin 73-cü maddəsində yazılan, hüquqi cəhətdən SSRİ-nin federativ dövlətdən unitar dövlətə keçməsinə zəmin yaradan "SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir" maddəsi layihədən çıxarılmışdı. 2 aprel 1978-ci ildə IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-in Konstitusiya layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddə yeni redaksiyada verilir: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

Heydər Əliyevin bu təşəbbüsü 21 aprel 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur.

Heydər Əliyev dilimizin qüdrətini ölməzliyin simvolu sayır, onu milli sərvət adlandırır, bu müqəddəs mirasın babalarımızın əmanəti olduğunu, qorunmasını isə vətəndaşlıq borcu hesab edir. O, ana dilini bilməyənləri şikəst adam adlandırmaqla millətin bütövlüyünün milli dildən keçdiyini çatdırır. Bütün bu göstərilənlər uzun illər Azərbaycana rəhbərlik etmiş böyük dövlət adamının mübarizələr dolu həyatının əsas leytmotivini təşkil edir.

Heydər Əliyevin ikinci hakimiyyət dönəmində təhsil islahatları onun fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edirdi. Onun hakimiyyətinin ilk dövrlərindən əvvəlcə 1-4-cü, sonra isə yuxarı siniflər üçün dərsliklər dövlət vəsaiti hesabına çap olunmağa başladı.

Ümummilli Lider təhsil sistemimizdə olan problemlərin optimal həlli məqsədilə 30 mart 1998-ci ildə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaratdı. Təhsil islahatlarının hərəkətverci qüvvəsinə çevrilən ən mötəbər tarixi sənəd isə yaradılmış bu Dövlət Komissiyası tərəfindən hazırlanan və 15 iyun 1999-cu il tarixli sərəncam ilə təsdiq olunan "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" oldu.

1998-ci ildə Azərbaycan müəllimlərinin XI qurultayı keçirildi. Bu, müstəqil Azərbaycan tarixində ilk qurultay idi. Xalqımızın böyük oğlu Heydər Əliyev qurultayda təhsil işçilərinin qarşısında duran vəzifələrin uğurlu həlli üçün proqram xarakterli tarixi çıxış etdi. Qurultayda təhsil tariximizdə ilk dəfə Respublika Təhsil Şurası yaradıldı. Ulu Öndər 1999-cu il iyunun 15-də Təhsil Sahəsində İslahat Proqramını sərəncamla təsdiq etdi və islahatların əsas məqsədini müəyyən etdi: "Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın… On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gedəriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik".

Bu strategiya uğurlu siyasi varis cənab İlham Əliyev dönəmində daha da inkişaf etdirildi. Heydər Əliyevin ən uğurlu tələbəsi və siyasi varisi cənab İlham Əliyevin də müəllimliklə bağlı maraqlı təcrübəsi var.

Dünyanın ən nüfuzlu universitetlərindən biri olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alan İlham Əliyev sonradan həmin universitetdə müəllim kimi çalışmışdır. Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində çıxışı zamanı Prezident İlham Əliyev qeyd edir ki, 5 il ərzində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim fəaliyyəti ilə məşğul olub, ona görə müəllim peşəsi onun üçün yad peşə deyil. Müəllimlərin fəaliyyətini çox yüksək qiymətləndirən dövlət başçısı bildirib ki, müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir:

*"Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var". Dövlət başçısı cənab İlham Əliyevin sözlərinə görə, müəllimlər daim yeniliklərə baxmalıdırlar: "Onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda müəllimlər də daim öz üzərlərində işləməlidirlər".*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# *Qələbəmizin təminatı:* hərbi qüdrətimiz, iqtisadi gücümüz



Bütün müharibələr dağıntılara səbəb olur və bu, müharibələrin insan itkisindən sonra ən ağır, ən acı tərəfidir. Ağırdır, acıdır onun üçün ki, qurub-yaradan da insandır, onu yerlə yeksan edən də. Aralarında olan fərq əməlləridir, birinin alqışlanan, digərinin lənətlənən əməlləri.

Ermənilər torpaqlarımızı işğal etdikdən sonra illər boyu xalqımızın qurub-yaratdığı nə varsa, hamısını məqsədyönlü şəkildə dağıtmışdır. Bu, erməni vandalizminin daha bir təsdiqi idi. Prezident İlham Əliyev ərazilərimiz işğaldan azad olunduqdan sonra bölgəyə səfərlərinin birində gördüyü bu dəhşətli mənzərə barədə demişdir: "Buradan sanki bir vəhşi köçəri tayfa keçmişdir". Bu, həqiqət idi. Çünki 30 il ərzində ermənilərin əsas məqsədi bir daha buralara azərbaycanlıların qayıtmasının qarşısını almaq olmuşdu. Bu yolda xalqımızda ruh düşkünlüyü yaratmaq, əsgərlərimizin mübarizə əzmini qırmaq, köçkünlərimizin doğma yurdlarına dönüş inamını öldürmək üçün əllərindən nə pislik gəlir, etmişlər. Ancaq görünür ki, onlar illərlə birgə yaşadıqları Azərbaycan xalqının əzmkarlığını, mübarizə əzmini düzgün qiymətləndirə bilməmişlər. Nə 2020-ci ildəki 44 günlük Vətən müharibəsini, nə də bu il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirini ağıllarına gətirmişlər. Görünür, heç ağılları yoxmuş. Olsaydı, indiki rəzil günə düşməzdilər.

Bu gün erməni quldurlarının viran qoyduğu ərazilərimiz başdan-ayağa yenidən qurulur və qurulduqca da dirçəlir. Cəmi 8 aya Füzuli Beynəlxalq Hava Limanının tikilməsi hətta dünyanın mənəm deyən ölkələrini də heyrətləndirdi. Bəli, Qarabağ və Şərqi Zəngəzurda "Böyük qayıdış" proqramı bu sürətlə icra edilir. Baş plana uyğun olaraq, işğaldan azad edilən ərazilərdə "ağıllı" şəhərlər və kəndlər salınır, inzibati binalar ucaldılır, parklar, xiyabanlar, istehsal müəssisələri yaradılır, beynəlxalq standartlara cavab verən infrastruktur layihələri icra edilir. Bütün bunlar doğma yurdlarına artıq qayıtmağa başlayan insanların firavanlığının təmin edilməsindən ötrüdür.

Prezident İlham Əliyev bu barədə BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində demişdir: "Digər bir element infrastrukturdur. Məsələn, dünən mən burada - Zəngilanda 10 meqavat gücündə yeni su-elektrik stansiyasının açılışını etdim. Ancaq növbəti altı ay ərzində onun imkanları 40 meqavata çatdırılacaq. Azad olunmuş ərazilərdə bu gün 90 meqavat həcmində hidroelektrik enerji artıq təmin edilir. Yəni azad olunmuş bütün ərazilərimiz yenidən bizim mərkəzi şəbəkəmizə qoşulur və tam inteqrasiya edilib. Bizim azad olunmuş ərazilərdə hidroelektrik enerjinin həcmi bu ilin sonunadək 170 meqavat, 2024-cü ilin sonuna qədər 270 meqavat olacaq. Bu da təbii ki, bizim "yaşıl enerji" gündəliyimizə böyük töhfə olacaq. Çünki Şərqi Zəngəzur və Qarabağın 10 min meqavat "yaşıl enerji" potensialı var. Buraya həm günəş, həm külək, həm də su-elektrik stansiyaları aiddir".

İnfrastruktur layihələr icra olunduqca insanların bölgəyə qayıdışı da təmin edilir. İndiyədək Laçın, Füzuli şəhərlərində, Ağalı, Talış, Zabux kəndlərində xeyli soydaşımız məskunlaşıb. Ümumiyyətlə, son məlumata görə, bu günədək 2300 məcburi köçkün doğma yurduna qayıdıb. İlin sonunadək bu rəqəmin 5500 olması gözlənilir. Üç il ərzində isə 100 mindən çox keçmiş məcburi köçkün öz yurduna dönəcək.

Məlum olduğu kimi, işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq layihələrini icra etmək üçün xərclənən vəsaitin hamısı ölkəmizin büdcəsindən ayrılır. Prezident İlham Əliyev bu barədə demişdir ki, bərpa-quruculuq layihələrini icra etmək üçün heç bir dövlətdən, heç bir beynəlxalq maliyyə qurumlarından vəsait alınmayıb. Bu isə bizə bərpa-quruculuq işlərini planlı şəkildə daha sürətlə aparmağa geniş imkan verir.

Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə böyük inkişaf yolu keçib. Təkcə bir fakt: bu dövrdə iqtisadi və sosial sahələrin inkişafı üçün 300 milyard dollardan çox investisiya qoyulub. Aparılan məqsədyönlü iqtisadi siyasət sayəsində 20 il ərzində ümumi daxili məhsul istehsalı 4 dəfə, büdcə gəlirlərimiz 30, xarici ticarət dövriyyəsi 10 dəfədən çox artıb. Yoxsulluq səviyyəsi 50 faizdən 5,5 faizə düşüb. Elə bütün bunlara görə qələbəmizi və bu qələbə nəticəsində işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərini ölkəmizin həm də iqtisadi qüdrətinin göstəricisi kimi dəyərləndirmək olar.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# 5 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

Cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb.

Bütün cəbhəboyu sıxışdırılan düşmən artıq bir neçə gündür ki, Ermənistan ərazisindən Azərbaycan ərazisində əhalinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistematik raket zərbələri endirir. Eyni zamanda Ermənistanın müdafiə nazirliyi Azərbaycan ərazisinin Ermənistandan atəşə tutulması faktını inkar edir və bunun işğal olunmuş ərazilərimizdən həyata keçirildiyini bildirir. Ermənistanın bu cür məsuliyyətsiz və cinayətkar hərəkəti məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.



❖ ❖ ❖

Beyləqan, Bərdə və Tərtər şəhərləri, Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

❖ ❖ ❖

İşğaldan azad edilmiş Talış kəndində Azərbaycan bayrağı dalğalanır. Müdafiə Nazirliyi videogörüntülər yayır.

❖ ❖ ❖

Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri, həmçinin Ağcabədi şəhəri atəşə tutulur, yaralılar var.



❖ ❖ ❖

Döyüşlərdə erməni hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və texnikaları nümayiş etdirilir.

Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya alayının 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilir.

❖ ❖ ❖



Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verir. Dövlət başçısı deyir ki, hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir. Artıq Cəbrayıl şəhəri işğaldan azad edilib və Cəbrayıl rayonunun bir neçə kəndi də düşməndən təmizlənib.

Dövlət başçısı vurğulayıb ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq: "Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək".

Ali Baş Komandan bir daha savaşın dayandırılması ilə bağlı təkliflərini səsləndirir. Bildirir ki, Ermənistanın baş naziri Azərbaycan xalqından üzr istəməlidir. Deməlidir ki, Qarabağ Ermənistan deyil. Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir.

Bununla yanaşı, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızdan nə zaman çıxacağını söyləməli və bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq və Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq: "Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar".



❖ ❖ ❖

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində paylaşım edir. Paylaşımda deyilir:

"Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!"

❖ ❖ ❖

Günün sonunda Prezident xalqa daha bir müjdəli xəbər verir. İlham Əliyev özünün rəsmi "X" səhifəsində yazır:

"Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!"

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistan: məğlubiyyətin xronikası

Cəbhədə vəziyyəti gərginləşdirməklə diqqəti Ermənistan daxilindəki problemlərdən yayındırmaq işğalçı ölkədə uzun illər həyata keçirilən əsas taktikalardan biri olub. Lakin küçədən ölkə rəhbərliyinə gələn Nikol Paşinyana bu taktika indi baha başa gəlməkdədir. Cəbhədə davam edən hərbi əməliyyatlar Ermənistanın güclü Azərbaycan qarşısında duruş gətirməkdə aciz olduğunu əyani şəkildə üzə çıxarıb. Döyüşlər erməni tərəfinin çoxsaylı itkilərə məruz qalması, işğal altındakı əraziləri tərk etməsi ilə nəticələnir. Cəbhə xəttində baş verənlərlə bağlı erməni mediasında davamlı olaraq məlumatlar paylaşılır.

❖ ❖ ❖



"Qraparak" qəzetinin Xankəndiyə ezam olunmuş müxbiri yazır ki, əhali müharibənin onlara böyük fəlakətlər gətirəcəyini yaxşı bilir: "Bir həftədir Stepanakertdəyik (Xankəndi-red.) Gecələr zülməti yaşayırıq, soyuq zirzəmilər insanlarla doludur. Şəhərdə işıq yoxdur. Baş verənlərdən erməni əsgər anaları çox narahatdırlar. Paşinyanın onların övladlarını ölümdən qurtaracağını gözləsələr də, bunun əksi baş verdi. Paşinyan Azərbaycanla müharibənin acı nəticələrini hesablaya bilməyib. O dərk etməlidir ki, erməni cəmiyyəti müharibədən bezib. Oğulları özgə torpaqlarda ölən erməni əsgər analarının naləsi Stepanakerti bürüyüb. Paşinyana, Araik Arutyunyana nifrət artır. Erməni ordusunda özbaşınalıq hökm sürür, döyüş ruhu aşağı düşüb və yeni nəsil mənasız müharibədə vuruşub ölmək istəmir".

"4rd.am" saytı yazır ki, elə bu günlərdə Ermənistanda hərbi xidmətə çağırılan gənc intihar edib. Hadisə Xankəndi yaxınlığında baş verib. Belə ki, Dağlıq Qarabağ bölgəsində yerləşdirilən hərbi hissələrdən birində xidmət edəcəyini öyrənən 28 yaşlı Arman Mixitaryan çıxış yolunu intiharda görüb. O, gizləndiyi zirzəmidə özünü asaraq həyatına son verib. Özünü öldürən Armanın cibindən məktub tapılıb. O, Dağlıq Qarabağa hərbi xidmətə göndərilməsinə etiraz olaraq intihar etdiyini yazıb.

❖ ❖ ❖

Rusiyanın "Dojd" telekanalı Xankəndidən reportaj hazırlayıb. Xankəndi sakini Naxşun Qriqoryan döyüş əməliyyatlarının ikinci günündə ərinin həlak olmasından danışıb.

İndi o, dərhal orduya çağırılan qardaşı üçün qorxur.

N.Qriqoryan deyir ki, əri hərbçi olub və işğal altında olan Şuşada xidmət edib:

"O, Şuşada xidmət edirdi və onu ön cəbhəyə göndərməməli idilər. Onu qanunsuz olaraq başqa yerə göndərdilər və onlar maşında gedərkən hamısını məhv etdilər. Şuşada daha təhlükəsiz idi, mənim ərim isə qanunsuz olaraq başqa yerə göndərildi və onu öldürdülər. Bu necə ölkədir axı?"

Naxşun Qriqoryanı Ermənistana yola salan anası deyir ki, onun oğlunu da orduya çağırıblar və Azərbaycan Ordusuna qarşı vuruşmağa göndəriblər: "Mənim oğlum təzəlikcə hərbi xidmətdən qayıtmışdı və onu dərhal yenidən çağırdılar və hərbi posta göndərdilər".



Naxşun onu da əlavə edib ki, əri müharibənin ikinci günündə ölüb: "Biz onu dəfn edə bildik. Mən Cermuka gedirəm, anam isə burada ölmək üçün qalır. Qardaşımı atmaq istəmir. Burada kim nə istəyir, onu da edir. Kiminçün müharibə, kiminçünsə də biznesdir. Niyə gəncləri ölməyə göndərirlər?! Azərbaycanlılar onsuz da bizdən güclüdürlər, gəncləri isə ölümə göndərirlər".

❖ ❖ ❖

"Sputnik Armeniya" saytı yazır ki, əhali Xankəndini tərk etməkdə davam edir. İndi orada, əsasən, kişi əhalisinin bir hissəsi qalıb. Bildirilir ki, atəş gurultuları getdikcə daha yaxından və ucadan eşidilir. Şəhərin əhalisi qələbəyə ümidini itirib və separatçı hakimiyyətin tezliklə süqut edəcəyini gözləyir. Mənzillərdə işıq kəsilib, tez-tez həyəcan siqnalı verilir və hətta qalan kişi əhalisi də zirzəmilərdə gizlənməli olur.



Yazılır ki, Azərbaycan hərbi cəhətdən indi özünü daha rahat hiss edir və Qarabağ məsələsini güc yolu ilə həll edir. Davam edən müharibə göstərir ki, Azərbaycandan fərqli olaraq erməni ordusunda vəziyyət getdikcə ağırlaşır, hərbçilərə lazımi diqqət yetirilmir.

"İravnuk" qəzeti müharibədə yaralanan və Xankəndidə hospitallardan birində müalicəsini davam etdirən erməni əsgər Aşot Movsisyanın fikirlərini dərc eləyib. Erməni əsgər jurnalistlə söhbətində yaşadıqlarının bir an öncə bitməsini və təkrar olunmamasını arzulayıb. Movsisyanın sözlərinə görə, hərbi əməliyyatlar zamanı ermənilər arasında heç bir koordinasiya yoxdur və komandirlər əsgərləri ön cəbhəyə göndərərək onlardan qalxan kimi istifadə edirlər. Döyüşlərdə onların ixtiyarına verilən hərbi texnika isə əsasən köhnəlmiş və istifadəyə yararsız vəziyyətdədir: "Qorxuncdur, heç xatırlamaq belə istəmirəm, yeməyə də əsgərlər heç nə tapmır. Çox dəhşətli günlər yaşayırıq".

❖ ❖ ❖



"Radio Sputnik" qeyd edir ki, Xankəndi şəhərinin və Dağlıq Qarabağın digər yaşayış məntəqələrinin sakinləri kütləvi şəkildə Ermənistana üz tuturlar. Təmas xəttinə yaxın yaşayış məntəqələri praktiki olaraq boşalıb. İnsanlar Xankəndinin mərkəzindəki mehmanxananın qarşısında toplaşırlar. Onlar ya avtobuslarla, ya da taksi və təsadüfi maşınlarla Yerevana gedirlər. Qarabağdan getmək istəyən ermənilərdən biri deyib ki, çox qorxurlar, şəhərdə döyüşlər gözlənilir.

❖ ❖ ❖



"The Heritage Foundation" nəzdində "Ellison" Xarici Siyasət Araşdırma Mərkəzinin direktoru Lük Koffi "X" səhifəsində yazıb ki, Xankəndidə Ermənistan tərəfindən 100-ə qədər xarici silahlı döyüşür: "Son vaxtlar xarici silahlıların Dağlıq Qarabağdakı döyüşlərdə iştirakı ilə bağlı bir çox ittihamlar var. Çox yüksəkvəzifəli və məlumatlı bir mənbədən 100-ə qədər xarici silahlının (mənə deyildiyi kimi, bəlkə də PKK) Xankəndidə olduğunu eşitdim. Xarici silahlıların varlığı - pis xəbərdir!"

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Türkiyə səfirliyində Beynəlxalq Astronavtika Konqresi çərçivəsində tədbir keçirilib

Oktyabrın 4-də 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Türkiyə səfirliyində tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı, Türkiyə Kosmik Agentliyinin prezidenti Serdar Hüseyin, Türkiyənin sənaye və texnologiyalar nazirinin müavini Əhməd Yozqatlıgil, 74-cü Beynəlxalq Astronavtika Konqresinin iştirakçıları olan türkdilli dövlətlərin nümayəndələri iştirak ediblər.

Qardaş Azərbaycanın 74-cü Beynəlxalq Astronavtika Konqresinə uğurla evsahibliyi etməsindən qürur duyduqlarını dilə gətirən Cahit Bağçı bu mötəbər tədbirin əhəmiyyətindən danışıb. Kosmik fəzada ölkəsinin qazandığı nailiyyətlərə diqqət çəkən diplomat tədbirin Türk Dövlətləri Təşkilatının (TDT) üzvü olan ölkələrin kosmik sahədə əməkdaşlığının inkişaf etdirilməsinə də töhfə verəcəyini vurğulayıb.

Beynəlxalq Astronavtika Konqresinin çox mühüm tədbir olduğunu diqqətə çatdıran Türkiyə Kosmik Agentliyinin prezidenti Serdar Hüseyin qardaş Azərbaycanın belə mötəbər tədbirə evsahibliyi etməsi, astronavtika sahəsindəki peşəkarları, şirkətləri bir araya gətirməsini əlamətdar hadisə kimi dəyərləndirib. O qeyd edib ki, konqres dünyanın nüfuzlu şirkətlərini və onların rəhbərlərini bir araya gətirərək əməkdaşlıq imkanlarını müzakirə etmək üçün gözəl platforma rolunu oynayır.

Ölkəsinin 2026-cı ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək niyyətində olduğunu və namizədliyini verdiyini diqqətə çatdıran agentliyin prezidenti tədbirin TDT üzvü olan ölkələrin bu sahədə əməkdaşlığının dərinləşdirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Konqresdə çox mühüm müzakirələr aparıldığını bildirən Türkiyənin sənaye və texnologiyalar nazirinin müavini Əhməd Yozqatlıgil tədbirin türk dövlətlərinin kosmik sahədə imkanlarını müəyyənləşdirməyə və inkişaf etdirməyə imkan verəcəyini vurğulayıb.

Ölkələrimizin kosmik fəzada əməkdaşlığının genişləndirilməsinin zamanın tələbi olduğunu bildirən nazir müavini deyib: "Biz gələcəkdə digər türkdilli ölkələrlə də işbirliyimizi artıracağıq. Kosmik sahədə də əməkdaşlığımızı inkişaf etdirəcək və möhkəmləndirəcəyik. Birliyimizi bütün dünyaya bir daha sübut edəcəyik".

# Şeyxülislam ICESCO-nun Baş direktoru ilə görüşüb

Oktyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.



İdarədən AZƏRTAC-a bildirilib ki, qonağı səmimi salamlayan Şeyxülislam nüfuzlu beynəlxalq təşkilatın Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirib: "Ölkəmizlə ICESCO arasında əlaqələr yüksək səviyyədə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyev sizinlə görüşərkən təşkilatın, o cümlədən Baş katib kimi şəxsən sizin fəaliyyətinizi yüksək dəyərləndirdi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ICESCO-nun Xoşməramlı Səfiri seçilməsi də qarşılıqlı faydalı əməkdaşlığın göstəricisidir.

Ermənistan 30 ildən çox idi ki, Azərbaycan ərazisini işğal edərək yaşayış məskənlərimizi, məscid və qəbiristanlıqları dağıtmış, tarixi mədəniyyət abidələrini məhv etmişdi. ICESCO törədilən bu vandalizm aktlarına öz kəskin etirazını bildirib, Azərbaycanın haqlı mövqeyini daim müdafiə edib və bu gün də öz obyektivliyini davam etdirməkdədir. Bu illər ərzində verdiyiniz dəstəyə görə şəxsən sizə və rəhbərlik etdiyiniz qurumun əməkdaşlarına minnətdarlığımı bildirirəm.

Siz Bakıya çoxsaylı səfərlər etmisiniz, budəfəki gəlişiniz xüsusilə əlamətdar bir dövrə təsadüf edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməyə nail olub. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti və ordumuzun rəşadəti sayəsində xalqımız misilsiz qələbə qazanıb. Təbii ki, Azərbaycanın ərazi bütövlüyü yolunda şəhidlər vermişik, Vətən üçün canından keçən hər bir qəhrəmanın xatirəsi bizim üçün əzizdir, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Dövlətimiz işğaldan azad edilən ərazilərdə böyük quruculuq işləri başlamaqla, tarix və mədəniyyət abidələrini bərpa etməklə şəhidlərin də ruhunu sevindirir".

QMİ sədri Şuşa şəhərinin ICESCO-nun xətti ilə 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı elan olunmasını da mühüm hadisə kimi dəyərləndirib: "Bu barədə xəbəri böyük sevinclə qarşıladıq. QMİ dini mərkəz olaraq bu məsələni diqqət mərkəzində saxlayacaq. İnşallah, gələn il din xadimlərimizin iştirakı ilə Şuşada tədbir keçirməklə mühüm tədbirə öz töhfəmizi verəcəyik".

Şeyxülislam Allahşükür Paşazadə Bakıda keçirilməsi planlaşdırılan Dünya Dini Liderlərinin III Sammiti barədə də geniş məlumat verib, ICESCO-nun bu tədbirdə mötəbər heyətlə iştirak edəcəyinə inandığını bildirib: "Azərbaycan Prezidentinin himayəsi ilə keçirilən hər iki sammitdə dünyanın müxtəlif ölkələrindən dini konfessiyaların liderləri, görkəmli ictimai xadimlər iştirak edib, mühüm məsələlər müzakirə olunub. Növbəti sammitin də yüksək səviyyədə keçirilməsinə, dünyada dinlər və mədəniyyətlər arasında dialoqun inkişafına xidmət edəcəyinə çalışacağıq".

Səmimi qarşılanmaya görə QMİ sədrinə təşəkkür edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki dünyada nüfuzlu din xadimi kimi tanınan Allahşükür Paşazadə ilə növbəti dəfə görüşmək fürsəti əldə etməkdən məmnunluq duyduğunu dilə gətirib: "Şeyxülislam həzrətlərinin ürəyimdə çox əziz bir yeri var. Allaha şükürlər olsun ki, sizinlə yenidən görüşə bildim".

Baş direktor Bakıda keçirdiyi rəsmi görüşlər barədə məlumat verərək Azərbaycanla ICESCO arasında yüksəksəviyyəli əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə inandığını bildirib: "Həm Azərbaycan Prezidenti İlham Əliyevlə, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşlərdə çox səmimi qarşılandım, şəxsimə və rəhbərlik etdiyim təşkilata qarşı çox böyük hörmət bəsləndiyinin şahidi oldum. Azərbaycan dövlət rəhbərinin başçılığı ilə qələbəyə imza atıb. Xalqınızı bu münasibətlə ürəkdən təbrik edir, rifah və inkişaf arzulayıram".

Salim bin Məhəmməd əl-Malik Şuşanın 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı elan edilməsinin Azərbaycan həqiqətlərinin müsəlman dünyasına çatdırılmasına gözəl bir vəsilə olacağına inandığını qeyd edib. O bildirib ki, ICESCO Azərbaycanda öz regional nümayəndəliyini də açmağı planlaşdırır. Qonaq bildirib ki, Dünya Dini Liderlərinin Bakıda planlaşdırılan III Sammiti ilə bağlı ICESCO QMİ ilə strateji əməkdaşlıqda maraqlıdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# ADA Universitetinin tələbələri kosmonavtlarla görüşüb





Oktyabrın 4-də 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində ADA Universitetinin tələbələri ilə astronavtlar arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirin açılışında ADA Universitetinin prorektoru Fariz İsmayılzadə çıxış edib. Daha sonra Azərbaycan Respublikasının Kosmik Agentliyinin təhsil meneceri İmran Muxtarov tərəfindən tələbələrə müvafiq qurumun fəaliyyət istiqamətləri, ölkəmizdə keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi və "Beynəlxalq astronavtlar proqramı" haqqında ətraflı məlumat verilib.

Gənclərlə interaktiv sual-cavab formatında aparılan görüşdə ABŞ-li astronavtlar John-David Bartoe, Ronald J.Garan, Russell L.Schveickart, rumıniyalı astronavt Dumitru-Dorin Prunariu və BƏƏ-li astronavt Hazzaa Al-Mansoori kosmosa səyahət və kosmik missiyaları ilə bağlı təəssüratlarını tələbələrlə bölüşüb və sualları cavablandırıblar.

Qeyd edək ki, Bakıda keçiriləcək konqres çərçivəsində çoxsaylı texniki sessiya və konfranslar təşkil edilib. Konqresdə kosmos sahəsi üzrə ölkələrin öz fəaliyyətlərini müzakirə etmək, biznes əlaqələri qurmaq imkanları yaradılıb. Bu, təkcə Cənubi Qafqazı deyil, həm də Türkiyəni, Mərkəzi Asiya və Yaxın Şərq ölkələrini əhatə etməklə Azərbaycanın və regionun akademik və biznes sahəsi üzrə kosmik sektorun ekspertləri və liderləri ilə əlaqə yaratmaq üçün unikal şansdır.

Nəzərə çatdırılıb ki, konqresin tərkib hissəsi "Beynəlxalq astronavtlar proqramı", "Kosmos və Sağlamlıq", "Kosmos və İnklüzivlik", "Kosmos və STEAM", "Astronavtların həyat və fəaliyyətinə həsr olunmuş brifinqlər" silsiləsindən ibarət olub, müxtəlif ali təhsil müəssisələri, elm tədqiqat institutları və gənclər mərkəzlərində məktəblilər, tələbələr, şəhid və qazi övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlər də daxil olmaqla 3 mindən çox Azərbaycan gəncinin iştirakı ilə görüşlərin keçirilməsi nəzərdə tutulur. Xatırladaq ki, gənclər arasında kosmos elminin tərənnümü, yüksək texnologiyalara marağın artırılması, milli kosmik ekosistemin təşviqi proqramın əsas məqsədlərindəndir.

# Azərbaycan və İran HDQ-ləri arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub





Azərbaycan və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən "Xəzri-2023" birgə taktiki təlimində müşahidəçi qismində iştirak etmək üçün İran İslam Respublikasının HDQ-nin nümayəndə heyəti Bakıya gəlib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası HDQ komandanı vitse-admiral Sübhan Bəkirov İran İslam Respublikasının HDQ-nin Əməliyyat Komandanı 1-ci dərəcəli kapitan Məhəmməd Reza Xəzainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. HDQ-nin qərargahında keçirilən görüşdə "Xəzri-2023" təliminin əhəmiyyəti xüsusi vurğulanaraq gələcəkdə Xəzər dənizində Azərbaycan-İran HDQ-nin də birgə təlimlərinin keçirilməsinin vacibliyi diqqətə çatdırılıb və bununla bağlı ilkin razılıq əldə edilib.

Görüşdə hər iki ölkənin HDQ-ləri arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

# *İcma:* "Ermənilərin Qarabağa qayıtmasının vacibliyini vurğulayan Toyvo Klaarın qərbi azərbaycanlıların qayıdışından danışmaması qəbuledilməzdir"

Qərbi Azərbaycan İcması Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaarın Ermənistan mediasına verdiyi müsahibəsində yer almış qərəzli mövqeyini, xüsusilə Azərbaycanın suveren ərazilərinə "uzunmüddətli çoxmillətli və ya BMT missiyasının yerləşdirilməsi" kimi düşük fikirlərini kəskin şəkildə qınayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı yaydığı açıqlamada bildirilir.

Açıqlamada həmçinin deyilir: "T.Klaar və digər Avropa İttifaqı rəsmilərindən Azərbaycanın suveren əraziləri ilə bağlı gülünc, düşmən açıqlamalar verməməyi tələb edirik. Azərbaycanın suveren ərazilərinə hansısa missiyanın yerləşdirilməsi T.Klaar və ya digərlərinin səlahiyyətində və həddində deyil. İkili standartların bariz nümunəsi olan Avropa İttifaqının Azərbaycana "mühazirə oxumaq" üçün mənəvi əsası yoxdur. Qoy T.Klaar Avropa İttifaqının təsisatlarına etnik azlıqlarla problemlərin yaşandığı Avropa İttifaqı ölkələrinə və monoetnik Ermənistana uzunmüddətli çoxmillətli və ya BMT missiyasının yerləşdirilməsi barədə tövsiyələr versin.

Müsahibəsində erməni sakinlərin Qarabağa qayıtmasının, onların dini, mədəni abidələrinin mühafizəsinin vacibliyini gen-bol şəkildə vurğulayan T.Klaarın qərbi azərbaycanlıların Ermənistana qayıdışından, Azərbaycan xalqının Ermənistandakı mədəni irsinin qorunmasından bəhs etməməsi, Xocalı cəlladlarının saxlanılmasından narahat olması riyakarlıqdır.

Xatırladaq ki, Ermənistandan qovulmuş azərbaycanlılar 30 ildən çoxdur öz vətənlərinə qayıdışı gözləyirlər. Dəfələrlə etdiyimiz müraciətlərə baxmayaraq, Avropa İttifaqı bu məsələyə dair mövqeyini ictimai şəkildə bəyan etməyib.

T.Klaar "Mənim üçün Dağlıq Qarabağ məsələsi bağlı deyil" sözləri ilə Xocalı cəlladı Serj Sarkisyanın bu günlərdə verdiyi oxşar açıqlamasını xatırladır. Avropa İttifaqı rəsmisinin diqqətinə çatdırırıq ki, özünün suverenliyini bərpa etmiş Azərbaycan üçün Qarabağ məsələsi bağlıdır və digərləri üçün bu məsələnin hələ açıq qalması yalnız onların fantaziyasının məhsuludur.

Məsələlərə etnik və dini təəssübkeşlik, azərbaycanofobiya əsasında yanaşılması Avropa İttifaqı üçün utanc olmalıdır.

Biz Avropa İttifaqından ayrı-seçkiliyə son qoymağı, insanların ləyaqətləri və hüquqları etibarilə bərabərliyi prinsipinə hörmət etməyi, Ermənistandan zorla qovulmuş azərbaycanlıların beynəlxalq mexanizm çərçivəsində, müvafiq təhlükəsizlik zəmanəti altında təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına dəstək verməyi tələb edirik".

# *İcma:* "Fransanın XİN başçısının son açıqlamaları rəsmi Parisin Ermənistanı revanşizmə sövq etdiyini göstərir"

"Fransanın xarici işlər nazirinin Ermənistana səfəri çərçivəsində verdiyi açıqlamalar, o cümlədən Ermənistanla hərbi yardım barədə sazişin imzalanması, Avropa İttifaqının missiyasının mandatının gücləndirilməsi barədə fikirləri rəsmi Parisin Cənubi Qafqaz regionuna geosiyasi rəqabət gətirməkdə maraqlı olduğunu, Ermənistanı militarizmə və revanşizmə sövq etdiyini göstərir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının yaydığı açıqlamada yer alıb.

Açıqlamada, həmçinin deyilir: "30 il ərzində Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinə, etnik təmizləməyə, 1 milyon azərbaycanlı qaçqın və köçkünün iztirablarına göz yuman, hətta bunu örtbasdır edən Fransanın indi Ermənistanın ərazi bütövlüyünün qorunmasından danışması riyakarlığın klassik nümunəsidir.

Azərbaycana qarşı "Ermənilər Qarabağdan güc tətbiq olunması təhlükəsinə görə çıxdılar" kimi iftira atan fransız nazir nədənsə ölkəsinin soyqırımlar, irqçiliklə dolu utancverici tarixini, hələ də başqa xalqları müstəmləkə asılılığında saxlamasını "unudur".

İnanırıq ki, Afrikada biabırcasına məğlubiyyətlərə düçar olan Fransanın dini təəssübkeşliyə, azərbaycanofobiyaya və islamofobiyaya əsaslanan Cənubi Qafqaz siyasəti də iflasa uğrayacaq".

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Daşaltıda nəşinin qalıqları tapılan Veysəl Qasımov torpağa tapşırılıb





Otuz bir il əvvəl Şuşada - Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olan Veysəl Qasımov İkinci Şəhidlər xiyabanında torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, döyüş yoldaşları, Xətai rayon sakinləri, hökumət və ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər və media nümayəndələri iştirak ediblər.

Şəhid Veysəl Qasımov əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi altında torpağa tapşırılıb.

Şəhidin nəşinin büküldüyü üçrəngli bayrağımız həyat yoldaşı Mərziyyə Qasımovaya təqdim edilib.

Dəfn mərasimində çıxış edən Milli Məclisin deputatı Adil Əliyev Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun suverenliyimizi və konstitusion quruluşumuzu tam bərpa etdiyini, məcburi köçkünlərin öz yurd-yuvalarına mərhələli şəkildə geri döndüyünü, bu yolda canını qurban verən bütün şəhidlərin ruhunun nəhayət ki, dinclik tapdığını bildirib.

Şəhidin döyüş yoldaşı ehtiyatda olan polkovnik-leytenant İlyas İsmayılov AZƏRTAC-a müsahibəsində deyib: "Veysəllə yalnız Daşaltı əməliyyatında çiyin-çiyinə döyüşmüşəm. 1992-ci il yanvarın 26-da səhər tezdən 6-ya 10 dəqiqə qalmış döyüşə başladıq. Veysəl bir ağaca söykənib döyüşürdü. Elə oradaca güllə sinəsindən dəymişdi. Saat 11 radələrində Veysəl şəhid oldu. Saat 12-nin yarısına qədər qrupun döyüşçülərinin hamısı, demək olar ki, şəhadətə ucalmışdı. Mən isə ağır yaralanmışdım. Məni digər qrupun üzvləri döyüş meydanından çıxardılar. Təəssüf ki, Veysəl və digər şəhid silahdaşlarımızın nəşini uzun illər götürə bilmədik. Lakin şükürlər olsun ki, torpaqlarımız düşməndən azad edildi. Nəticədə biz şəhidlərimizin nəşinin qalıqlarını tapıb adlarına layiq şəkildə dəfn edirik. Həmin qrupdan itkin şəhidlərin çoxu dəfn olunub. Yalnız dörd nəfər qalıb. Ümid edirəm ki, tezliklə onlar da tapılar, ailələrinin nisgilinə son qoyular.

Veysəl 31 il 8 ay 9 gündən sonra qurban getdiyi torpağa tapşırıldı. O, idmançı idi, ona görə də gücünə, dözümünə söz ola bilməzdi. Həm də qorxmaz, ürəkli biri idi. Ölümdən qorxusu yox idi, irəli atılanda düşünmürdü ki, düşmən gülləsinə tuş gələ bilər. Yaralananda belə bildirmədi, ağrılarını gizlətdi. Səssiz-sədasız da şəhid oldu. Veysəl kimi qəhrəmanlardan örnək alan, onun yolunun davamçıları olan gənclər sonrakı dövrlərdə, istər Aprel döyüşlərində, istər Vətən müharibəsində, istərsə də son antiterror tədbirləri zamanı elə bir şücaət, igidlik göstərdilər ki, həmin şəhidlərimiz sağ olsa idilər, onlarla qürur duyardılar. Həm qəhrəmanların qisası alındı, həm də ərazi bütövlüyümüz bərpa olundu. Son əməliyyatlardan sonra xalqımıza qarşı cinayət törədən, qorxularından qaçıb zirzəmilərdə gizlənən terrorçular bir-bir həbs olunurlar. Onlar nəhayət ki, cəzalandırılacaq, etdikləri vəhşiliklərin cavabını verəcəklər. Dünyanın bərpa etmək istəmədiyi ədaləti gənclərimiz öz canları, qanları ilə bərpa etdilər".

Qeyd edək ki, 1963-cü il noyabrın 17-də Bakıda anadan olan Veysəl Qasımov 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı zamanı şəhid olub.

Xatırladaq ki, ötən ay Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyətləri müəyyən edilmiş daha 10 nəfərin meyit qalıqlarının eyniləşdirilməsinə nail olunub. Onlardan biri də şəhid Veysəl Qasımovdur.

# Seyfulla Tairovun Edillidə aşkarlanan nəşinin qalıqları Saatlıda torpağa tapşırılıb





Otuz il əvvəl Füzuli uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Tairov Seyfulla Veytulla oğlunun Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları doğulduğu Saatlı rayonunda torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, şəhid Seyfulla Tairovun nəşi Saatlı rayonunun girişində izdihamla qarşılanaraq ailəsinin yaşadığı və doğulub boya-başa çatdığı Cəfərxan kəndinə gətirilib. Şəhidlə vida mərasimi olub və cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.

Sonra şəhidin nəşi dəfn üçün Saatlı rayonunun Şirinbəy kənd məzarlığına gətirilib. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət və ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri, döyüş yoldaşları, media nümayəndələri iştirak ediblər. Dəfn zamanı şəhidlərimizin ruhuna dualar oxunub və "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib. Daha sonra şəhid Tairov Seyfulla torpağa tapşırılıb. Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı qardaşına təqdim olunub.

Qeyd edək ki, Tairov Seyfulla Veytulla oğlu 1973-cü ildə Saatlı rayonu Cəfərxan kəndində dünyaya göz açıb. Həqiqi hərbi xidmətini rus qoşunlarının tərkibində çəkən Seyfulla Vətənin dar günündə xidmətini yarıda saxlayaraq Azərbaycana qayıdıb və 1992-ci ildə döyüşlərə qoşulub. Bir çox hərbi sirlərə peşəkarcasına yiyələndiyi üçün o, müharibədə kəşfiyyatçı kimi iştirak edib. Xüsusi tapşırıqların yerinə yetirilməsində şücaət göstərib və ermənilərin baş leytenant rütbəsində olan Vardan adlı zabitini əsir götürüb. Seyfullanın döyüş tapşırıqları əsasən Füzuli rayonu ərazisində olub. 1993-cü il avqustun 31-də Füzuli rayonunun Kürdmahmudlu kəndində iştirak etdiyi döyüşdə Seyfulla itkin düşüb. Ötən bu müddətdə ailəsi ondan hər hansı məlumat ala bilməyib. İkinci Qarabağ müharibəsində torpaqlarımız azad edildikdən sonra ermənilərin törətdikləri cinayətlərin izləri açılmağa başladı. Seyfullanın nəşinin qalıqları isə ötən il oktyabr ayında Xocavənd rayonunun Edilli kəndində tapılan 12 şəxsin basdırıldığı kütləvi məzarlıqda aşkarlanıb.

Qeyd edək ki, sözügedən məzarlıqda erməni vəhşiliyinə məruz qalaraq, məftil və kəndirlərdən istifadə edilməklə əl-ayağı bağlanaraq kütləvi şəkildə dəfn olunan 12 nəfərin qalığı tapılıb. İlkin baxışda kəllə sümüklərində küt alət izləri, həmçinin güllə və iti alətin deşdiyi izlər müşahidə olunub. Bu faktlar onu göstərir ki, erməni qəsbkarları əsir götürdükləri şəxsləri zorakılıqla qətlə yetirib və kütləvi formada basdıraraq cinayət izlərini ört-basdır etməyə çalışıblar.

# AMADA-nın direktoru Avropa Şurası ölkələrinə müraciət edib

Oktyabrın 3-də Latviyanın paytaxtı Riqada Avropa Şurasının təşkilatçılığı ilə antidopinq sahəsində ədalətli məhkəmə üzrə plenar sessiya keçirilib.



Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) AZƏRTAC-a verilən məlumata görə, mötəbər tədbirdə ölkəmizi AMADA-nın direktoru Şəfəq Hüseynli təmsil edib.

Tədbiri Avropa Şurasının Baş katibinin müavini Byörn Berge açaraq qurumun hazırladığı antidopinq sahəsində ədalətli məhkəmə hüququnun təmin edilməsi sənədinin insan hüquqlarının qorunmasına yönəldiyini vurğulayıb. Sonra sessiyada Norveç Milli Antidopinq Təşkilatının direktoru Anders Solheim və AMADA-nın rəhbəri Şəfəq Hüseynli bu istiqamətdə görülmüş işlər barədə çıxış ediblər. Çıxışlar zamanı sənədin mahiyyəti, məqsədi və irəli gələn məsələlər barədə məlumat verilib. Ş. Hüseynli həmçinin Azərbaycanda bu istiqamətdə qurulmuş və qanunvericilik tərəfindən təmin edilmiş mexanizmlə bağlı xüsusi təqdimatla çıxış edib. Anders Solheim və Şəfəq Hüseynli antidopinq sahəsində ədalətli məhkəmə hüququnun təmin edilməsi sənədinin hazırlanması üçün Avropa Şurası tərəfindən yaradılmış xüsusi qrupun sədr və sədr müavini olublar.

Qeyd edək ki, Şəfəq Hüseynli hazırda Avropa Şurasının Monitorinq Qrupunun sədr müavinidir və sənədin icrasına operativ nəzarət edir.

**5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür**

# Qəhrəmanlar yetişdirən müəllimlərin bayramı

Dünya səviyyəsində müəllimlərin peşə bayramı 1966-cı ildən UNESCO-nun qərarı ilə Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur. Ölkəmizdə isə bu müqəddəs peşə sahiblərinin bayramı 1993-cü ildən rəsmi status alıb.



Müəllim cəmiyyətin savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa sahib, vətən və xalq üçün ləyaqətli insan yetişməsi üçün gecəsini gündüzünə qatan cəmiyyətin qurucu memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində müəllimlərimizin əvəzsiz xidmətlərini inkar etmək mümkün deyil.

Ümummilli Lider Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, onun haqqında xoş sözlər söyləmişdir: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".

Ölkəmizdə son illər təhsilin inkişafına xüsusi diqqət göstərilir. Son illər ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəb tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici hal bir də odur ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir.

Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə mükəmməlliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştiraklа yanaşı, onların əyani vəsaitlər, şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni, müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirir.

Təhsil işçilərinin əməkhaqlarının artırılması, mükafatlandırılması, orden və medal, fəxri adlarla təltif edilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar təhsil işçiləri üçün böyük stimul olmaqla yanaşı, onların məsuliyyətini də artırır. Ucqar kəndlərə işləməyə göndərilən müəllimlərə xüsusi imtiyazların verilməsi də müəllim əməyinə verilən qiymətdən xəbər verir.

Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları ilə başlayan münaqişənin şanlı qələbə ilə başa çatması göstərdi ki, Prezident İlham Əliyevin Ali Baş Komandan kimi qətiyyəti, siyasətçi kimi iradəsi, diplomat kimi müdrikliyi və ordumuzun qəhrəmanlığı, xalqımızın birliyi qarşısında heç bir qüvvə dözüm gətirə bilməz.

İllərlə vətən həsrəti çəkən Zəngilan rayonunun Ağalı kənd sakinləri 19 iyul 2022-ci ildə doğma vətənlərinə geri qayıtdılar. Geri dönən ailələr içərisində mən də öz ailəmlə Ağalıya köçdük. Bu gün Ağalıda sakit, xoşbəxt, firavan həyat yaşayırıq.

Məktəbimizin açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər. Bizlər dövlətimizin diqqətini, qayğısını daim hiss edirik. 19 oktyabr 2022-ci il isə biz müəllim heyəti və şagirdlərimiz üçün möhtəşəm tarixi günə çevrildi. Məhz həmin gün kollektivimiz ölkə Prezidenti və Mehriban xanım Əliyeva ilə görüşdü. Bu tarixi anları heç vaxt unutmaq olmaz. Möhtəşəm bir gün idi!

Böyük qayıdışdan sonra Qarabağda ilk təhsil ocağı olan Ağalı kənd tam orta məktəbi artıq ikinci ildir ki, fəaliyyət göstərir. Şagirdlərimizin sayı 100 nəfəri keçib, kollektivimiz də artıb. Məktəb evimiz qədər bizlərə doğma və əzizdir. Bir müəllim kimi vəzifəmiz Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, savadlı, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir.

***Nərmin HƏSƏNOVA,***
***Zəngilan rayon Ağalı kənd orta məktəbin direktoru***

# Laçınlı müəllimlər 31 ildən sonra peşə bayramlarını yenidən doğma məktəblərində qeyd edirlər

***"Mən dünyada müəllimdən şərəfli ad tanımıram"***
***Heydər ƏLİYEV***





Təhsil gələcəyimiz, müəllim isə təhsildə əsas sima, nüfuzlu şəxsdir. Onun əməyi əsl vətənpərvərlik nümunəsidir. Azərbaycan dövləti bu müqəddəs peşə sahiblərinin şərəfli əməyini həmişə yüksək qiymətləndirib.



Müəllimlərimiz hər zaman fəaliyyətlərində vətənimizin və millətimizin gələcəyi olan şagirdlərin layiqli vətəndaş olmaları, vətənpərvər ruhda yetişmələri üçün ardıcıl və prinsipial xidmət göstərirlər. Təhsil haqqında qanunun da əsas qayəsini bu təşkil edir: "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək".

Azərbaycan müəllimi bu missiyanı layiqincə yerinə yetirir. Qarabağı görməyən oğullar düşünmədən vətən torpağı uğrunda canlarından keçərkən bir an belə tərəddüd etmədilər. Təsadüfi deyil ki, müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev müəllimlərin əməyini yüksək qiymətləndirərək demişdir: "Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır".

Prezident İlham Əliyev də hər zaman müəllimlərə xüsusi diqqət göstərir, onların peşə nüfuzunun artırılması, maddi rifahının yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görür. Bu gün Azərbaycan müəllimi daha qürurlu, daha fəxarət dolu bir həyat yaşayır, başını dik tutur. Çünki onlar qalib ölkənin qalib müəllimləridir, qəhrəman vətən övladlarını yetişdirən insanlardır.

Sevindirici, qürurverici faktdır ki, 30 illik ayrılıqdan sonra öz doğma yurdundan, evindən, doğma məktəbindən didərgin salınmış Azərbaycan müəllimi peşə bayramını öz təhsil ocaqlarında - Laçında, Zəngilanda, Füzulidə qeyd edir. Müəllimlərimiz üçün bu gün bir də ona görə əzizdir ki, illərdir separatçıların məskən salıb milli ədavəti qızışdırdıqları Xankəndi cinayətkar ünsürlərdən təmizlənir.

Laçın şəhər 2 saylı məktəbin direktoru Sevinc Cabbarova deyir ki, dövlətimizin təhsilə olan münasibəti biz müəllimləri çox sevindirir: "Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunan torpaqlarda ilk olaraq məktəblərin, təhsil müəssisələrinin təməlini qoyur. Qürurla deyə bilərik ki, 30 ildən sonra öz qapılarını yenidən doğma şagirdlərinin üzünə açmış Laçın şəhər 2 saylı məktəbi də Azərbaycan Prezidentinin sərəncamı ilə ilk bərpa olunan təhsil ocağıdır. İşğalın hər üzünü görmüş, uzun illər divarları qan qoxuyan bu məktəb indi yeni binasında müasir tələblərə cavab verən yüksək texnoloji avadanlıqlarla təmin edilmişdir. Biz doğma torpaqlarımızdan məcburən ayrıldığımız zaman da Laçından uzaqlarda fəaliyyət göstərəndə də şagirdlərə azərbaycançılıq məfkurəsini aşılamış, onların vətənpərvər ruhda yetişməsi üçün bütün gücümüzlə çalışmışıq. Əminliklə deyə bilərik ki, işğaldan azad edilən rayonların müəllimləri olaraq bu gün doğma yurdumuzda fəaliyyətimizin ən qürurlu günlərini yaşamaqdayıq! Hazırda məktəbimizdə 20 müəllim 60 şagirdin yüksək səviyyədə təhsil alıb vətənə layiqli vətəndaş olmaları üçün var gücü ilə, inam və məsuliyyətlə çalışır. 31 ildən sonra doğma torpaqlarımızda fəaliyyət göstərmək sevincini bizə yaşadan, Qarabağımızı düşmən işğalından xilas edən Müzəffər Ali Baş Komandanımıza məktəbimizin müəllim və şagird kollektivi adından təşəkkür edir, şəhidlərimizin ruhu qarşısında baş əyirik".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Koronavirus təhlükəsi səngimir



Artıq bir neçə aydır ki, COVID-19-un yeni subvariantı bütün dünyada sürətlə yayılır. "Eris" ("EG.5") yüksək yoluxuculuq qabiliyyətinə sahib olsa da, öldürücülüyü aşağıdır.

ÜST-nin məlumatına görə, Rusiya, ABŞ, Avstraliya və Avropanın bir sıra ölkələrində COVID-19-a yoluxma hallarında kəskin artım müşahidə olunur, bu səbəbdən xəstəxanaya yerləşdirilmələr sürətlə artır.

Bir çox Avropa ölkələrində insanlar gücləndirici dozanın qəbul olunmasına çağırılır. Fransa, Almaniya, İspaniya, Polşa və Bolqarıstanda vaksinasiya ilə bağlı təşviqat aparılır. Fransada artıq peyvəndlənmə ilə bağlı yeni kampaniya başladılıb.

Almaniyada yoluxma sayında yüksək artım müşahidə edilsə də, ölkənin Səhiyyə Nazirliyindən bildirilib ki, hələ ki ümumi karantinə ehtiyac yoxdur: "Xəstəliyin əsas simptomları olan burun axması, boğaz ağrısı və öskürək aradan qalxana qədər 3-5 gün evdə qalmaq, təmasdan qaçmaq tövsiyə olunur. Əgər lazım gələrsə, həkimə müraciət etmək lazımdır".

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov qəzetimizə bildirib ki, "Eris" və "Priola" "Omikron"un alt növüdür və onlar sələflərindən yoluxuculuğu ilə fərqlənirlər: "Xəstəliyin əlamətləri hərarətin yüksəlməsi, ümumi zəiflik, halsızlıq, boğaz ağrısı, öskürək və burun axması onu digər respirator virus infeksiyalarına oxşadır və bu xəstəlikləri biri-birindən ayırmaq yalnız xüsusi laborator müayinələr nəticəsində mümkündür. Ştamından və altnövündən asılı olmayaraq, ölkəmizdəki test sistemlər koronavirusu pasiyentdə aşkar etməyə imkan verir".

Ölkəmizdə yeni ştamların rəsmi olaraq aşkarlanmadığını söyləyən mütəxəssis COVID-19-a yoluxma sayında cüzi artımların olmasını təbii şəraitlə, insanların məzuniyyətdən işə qayıtması, tədrisin başlanması, ən əsası isə, havaların tədricən soyuması, insanların daha çox qapalı məkanlarda toplanması və yaxın təmasların artması ilə əlaqələndirib.

T.Eyvazov qeyd edir ki, əhalinin əksəriyyətinin xəstəliyin yüngül keçməsi ilə əlaqədar həkimə müraciət etməməsi nəticəsində statistik rəqəmlər real rəqəmlərdən daha az olacaqdır: "Ümumən düşünürəm ki, əhalinin pandemiya dövründə qazandığı təcrübə, özünü qoruma qaydalarına əməl etməsi, risk qrupuna daxil olan şəxslərin vaksinasiyasına yönəlmiş maarifləndirmə işləri baş verə biləcək yeni artımların öhdəsindən asanlıqla gələ biləcəyimizi proqnozlaşdırmağa əsas verir. Risk qrupuna daxil olanlar peyvənd olunmaqla bu dalğanı adlaya bilərlər".

İnfeksionist onu da vurğulayır ki, virusa yoluxan şəxslər ona məhəl qoymadan tövsiyə edilən qaydalara riayət etmirlər: "Xəstəliyin əksəriyyətdə yüngül əlamətlərlə keçməsi və yoluxan şəxsin iş qabiliyyətinin bir o qədər də azalmaması səbəbindən xəstə şəxs evdə qalaraq özünü təcrid etmək əvəzinə, dərs və ya iş fəaliyyətini davam etdirir, qapalı məkanlarda yaxın təmaslar nəticəsində, ictimai nəqliyyatda və s. yerlərdə yoluxmaların baş verməsinə zəmin yaradır. Buna görə də payıza, qışa doğru yoluxma sayında baş verən artımlar gözləniləndir. Son üç il ərzində əldə edilən infeksiyadan qorunmaq təcrübəsini indi də tətbiq etmək lazımdır".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 06.02.2023-cü il və 17.02.2023-cü il tarixlərində elan edilmiş

- **330/110/10 kV-luq "Ələt Azad İqtisadi Zona" Yarımstansiyanın tikintisi, "Qobu" Elektrik Stansiyasının 330 kV-luq Açıq Paylayıcı Qurğuda və "Cənub" Elektrik Stansiyasının 330 kV-luq Qapalı Paylayıcı Qurğuda genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması;**
- **330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması;**
- **330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması məqsədilə müsabiqələrin müddəti podratçının sorğusuna əsasən uzadılır.**

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdim olunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 24 oktyabr 2023-cü il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 01 noyabr 2023-cü il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 02 noyabr 2023-cü il saat 15:00 tarixinə keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanında (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT BAĞI OĞLU YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyi və deputatlar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Elm və təhsil komitəsi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti akademik

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, professor

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Oruc Zalov Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Mayıl Səməd oğlu Rəhimova həyat yoldaşı

**SƏYYARƏ RƏHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin kollektivi

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti akademik

**XOŞBƏXT BAĞI OĞLU YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsində uzun müddət çalışmış, Qarabağ Meşə Meliorasiya İdarəsinin sabiq rəisi

**RƏŞİD RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsində uzun müddət çalışmış, Göyçay Suvarma Sistemləri İdarəsinin sabiq rəisi

**ŞAKİR ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, görkəmli neftçi-alim, akademik

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5347**
**Sifariş 2555**

**Qiyməti 40 qəpik**